AZƏRBAYCAN RESPUBLİKASININ
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
www.diaspor.gov.az

**Səriyyə Müslüm qızı**

# HARADASINIZ, "13-lər?"

**Bakı 2026**

**Kitab Azərbaycan Respublikasının
Diasporla İş üzrə Dövlət Komitəsinin
maliyyə dəstəyi ilə çap edilmişdir.**

Müəllif: **Səriyyə Müslüm qızı**

Redaktor: **Rəsmiyyə Qarayeva**

Korrektor: **Validə Abas-zadə**

Kitabın türk dilinə tərcüməsi **Avrasiya Tərcümə Mərkəzi** tərəfindən həyata keçirilib.

**Haradasınız, "13-lər?".**

Bakı, Zərdabi Nəşr MMC, 2026, 80 səh.

Səriyyə Müslümqızının Haradasınız "13-lər?" kitabında 1992-ci il fevralın 25-dən 26-na keçən gecə və sonrakı günlərdə erməni silahlı birləşmələrinin və sovet ordusuna məxsus 366-cı alayın əsgərlərinin Xocalıda törətdikləri soyqırımı zamanı əsir götürdükləri 13 gənc oğlanın acı həyat hekayəsindən və hələ də məlum olmayan talelərindən bəhs olunur.

O qanlı gecədə ata-analarının əlindən zorla alınıb sonsuz qaranlığa aparılan 13 gəncin arasında evin yeganə övladı da var idi, bir evin 3 oğlu da. Kitabda övladlarının faciəsinə dözməyib bir neçə aydan sonra dünyasını dəyişən ata-analardan da söz açılır.

Azərbaycan və ingilis dillərində nəşr olunan kitabda müəllif dünyanı ədalət məhkəməsində doğru qərar verməyə çağırır.

**ISBN 978-9952-594-40–9**

**© Azərbaycan Respublikasının
Diasporla İş üzrə Dövlət Komitəsi, 2026**

# MÜNDƏRİCAT

HARADASINIZ "13-lər?" ....................................................5
NEREDESİNİZ, "ON ÜÇ GENÇ ADAM"?!........................7

"BİZ OLMASAYDIQ, KİŞİLƏR ƏSİR
DÜŞMƏYƏCƏKDİLƏR…" ..................................................9
"EĞER BİZ ORADA OLMASAYDIK ERKEKLER
DÜŞMANIN ELİNE GEÇMEYECEKTİ..".......................13

"ÇOX YORULMUŞAM, ANA…" ......................................17
ÇOK YORGUNUM, ANNE................................................21

ATA ƏSİR DÜŞDÜ, ÖVLADI GÜLLƏLƏNDİ ..................25
BABA ESİR ALINDI, OĞLU VURULDU .........................27

"ÜÇ OĞULDAN BİRCƏSİNİ BİZ QOCALARA
BAĞIŞLA..." ......................................................................29
ÜÇ OĞULDAN BİRİNİ BİZE, YAŞLILARA
BAĞIŞLA ...........................................................................33

ÜRƏYİMƏ DAMMIŞDI Kİ, RÖVŞƏNİ DAHA
GÖRMƏYƏCƏYƏM…" ....................................................37
RÖVŞEN'İ BİR DAHA ASLA GÖREMEYECEĞİM
İÇİME DOĞMUŞTU...........................................................41

"QARDAŞIMIN BAŞINA DAŞ VURUB DEDİ Kİ,
SƏN DƏ ÇIX…"..................................................................45
"QARDAŞIMIN BAŞINA DAŞLA VURUB
DEDİ Kİ, SƏN DƏ ÇIX…" ................................................48

"13-lər"dən BİRİ DƏ QARDAŞIM VÜQARDIR…..............51
ON ÜÇ KİŞİDEN BİRİ KARDEŞİM VÜGAR'DI..............54

"MACAL TAPMADI Kİ, ÖZÜNÜ GÜLLƏ İLƏ
VURSUN…" ......................................................................56
KENDİNİ VURMAYA FIRSAT BULAMADI ....................58

"BİR GÖZ QIRPIMINDA ARAMIZDAN
3 GƏNCİ SEÇİB APARDILAR…" .....................................60
GÖZ AÇIP KAPAYANA KADAR ARAMIZDAN
ON ÜÇ GENCİ SEÇİP GÖTÜRDÜLER .............................64

"BACIMA NƏ CAVAB VERƏCƏYƏM?!"..........................68
KIZ KARDEŞİME NE CEVAP VERECEĞİM?..................71

"ATAM ELƏ HEY, "HANI ŞAHİN, HANI ŞAHİN?"
– DEYİRDİ… ....................................................................74
BABAM HEP, 'NEREDE ŞAHİN, NEREDE ŞAHİN?'
DERDİ .............................................................................77

## HARADASINIZ “13-lər?”

O gecə dərd batmanla gəlmişdi Xocalıya!

O gecə, Dəhraz kəndi, xəndək, çarəsiz xocalılılar, dərin-dərin yuxuya dalmış dünya və bəlkə də Tanrının özü...

Yer üzündə yaşanan qiyamətdən xəbərsizdilər, çünki gözlər kor, qulaqlar kar olmuşdu. İnsanlar amansızlıqla qətlə yetirilirdi o gecə insanlıqla bərabər. Xocalı faciəsi bir dərd idi, taleyi hələ də məlum olmayan, 13 gəncin dönüşü olmayan yolçuluğu ayrı bir dərd. Bu dərd heç qaysaqlamadı, hələ də qan ağlayır…

Dəhraz kəndindəki yalnız nəfəsliyi olan o uzun xarabalıq tikilinin daşları, divarları bilir 13 gəncin son taleyini. Körpə gözləri ölümə necə baxdı?! Bunu yalnız o binanın daşları bilir. Dilləri olsaydı da, bəlkə danışmağa cürət etməzdilər, çünki o müsibəti anlatmağa daşlar belə cəsur deyil. Bir danışın, a daş qardaş, susmayın, necə oldu o məsum körpələrin sonu? Onların əksəriyyətinin bığ yeri heç tərləməmişdi. Nə anlardılar ölümdən, qandan?! Cəsarətli olun, danışın, ölümün gözünə necə baxdılar?!

Çox axtardıq onları, təkcə ailələri deyil, hamımız soraqladıq. Sonralar Bakıdakı Qırmızı Xaç Komitəsinin nümayəndəliyinə getdik. Aldığımız cavablar o xarabalıq tikilinin daşları kimi lal idi. Sanki yer yarılmış yerə girmişdilər, ya da göyə sovrulmuşdular. Həmin dəhşətli gecədə qar üstündəki ayaq izlərindən savayı heç nə qalmadı onlardan bizə…

O gecə anasından-atasından, ailəsindən ayırıb o lənət olunası tikilidən 13 gənci çıxarıb aparan erməni yaraqlıları dayanmadan güllə atırdılar. Bizi çölə çıxaranda baxdıq, yerdə gilizlər yox idi. Deməк, hələ öldürməmişdilər, hansısa bir xarabalıqda işgəncə verirdilər…

Haradasınız, Xocalının özü qədər talesiz balaları? Düz, 31 ildir qəlbimiz sızlayır. Gözümüzün yaşı sel olur, hələ də sizi axtarırıq!

Bir vaxtlar Xocalı məktəbində bu gənclərin bəziləri mənim şagirdlərim idilər. Onların arasında anasının gözünün nuru olan bircə madar övlad da vardı. Ana ümidini, arzularını, xəyallarını ona bağlamışdı. Həmin gecə insanlığın, yerin, göyün bitdiyi, yox olduğu vaxt idi. Övladlarının dərdinə dözməyib dünyadan vaxtsız köçdü o gənclərin ata-anaları. Gözlərini əbədi yumarkən də oğullarını arzulamışdılar. Bunları yazmaq da yaşamaq qədər çətindir, dözülməzdir...

Xocalı başdan-başa dərddir, kədərdir, ağrıdır, insan oğluna, Yaradana üsyandır. Qurbanlıq qoyun kimi bir gözqırpımında 13 həyatın işığını söndürəsən, bir ananın bağrına köz basasan, ciyərini yandırasan. Yerlərdən əlimizi üzmüşdük, göylər niyə bu dərdə dözdü, bilmədik…

Gənc oğullarımız çarəsiz qalmışdılar, ölüm növbəsini gözləyirdilər, sadəcə. İnsanlar çarəsiz qalmışdılar, düşmənə yalvarıb, "Bizi öldür, balalarımıza qıyma"– deyirdilər. Üç oğuldan bircəsini belə amansız düşmən yaşlı ata-anasına bağışlamadı. Dəhşətdir. Bu gənclərin nakam taleləri qəlbimizdə qiyamətədək qubar bağlayacaq. Onların başına gələn faciələr hələ də məlum deyil. Bizim isə baiskarları ədalət məhkəməsinə çəkmə vaxtımızdır. Ümid edirik, qalib Dövlətimiz 13 günahsız gəncin baiskarını layiq olduğu şəkildə cəzalandıracaq.

*Bizə isə onlara səslənmək qalır: Haradasınız, "13-lər?" Səsimizə səs verin. Qanınız yerdə qalmadı, buna əmin olun!*

# NEREDESİNİZ, "ON ÜÇ GENÇ ADAM"?!

O gece dert batmanla gelmişti Hocalı`ya!

O gece, Dehraz köyü, hendekler ve çaresiz Hocalı halkı,- dünya ve belki de Tanrı bile derin bir uykudaydı. Gözleri kör, kulakları sağır olduğu için yeryüzünde yaşanan kıyametin farkında değillerdi. O gece insanlıkla birlikte insanlar da vahşice katlediliyordu. Hocalı faciası bir acıydı, nerede oldukları hala bilinmeyen on üç gencin karanlık akıbeti ise başka bir acı. Bu acı hiç azalmadı, hala kan ağlıyor...

Dehraz köyündeki o harabenin taşları ve duvarları on üç gencin akıbetini bilen tek şey. O gençler ölüme nasıl baktı?! Bunu sadece o binanın taşları bilir. Dilleri olsa bile konuşmaya cesaret edemezler. Taşlar bile o trajediyi anlatacak kadar cesur değil. Söyleyin bana, ey taş kardeş, susmayın, o masum kınalı kuzuların sonu nasıl oldu?

Çoğunun bıyıkları bile terlememişti. Ölümü, kanı ne bilebilirlerdi ki? Cesur olun ve konuşun, ölümle nasıl yüz yüze geldiler?

Onları durmadan aradık. Sadece aileleri değil, hepimiz. Sonra Bakü'deki Kızıl Haç ofisine gittik. Aldığımız cevaplar, yıkık binanın taşları sessizdi. Sanki yer yarılmış yerin dibine girmişler, ya da havaya savrulmuşlar gibi. O korkunç gecede, kar üzerinde bıraktıkları ayak izleri dışında onlardan geriye hiçbir şey kalmamıştı...

Onları annelerinden, babalarından, ailelerinden ayıran o lanetli binadan 13 genci sürükleyerek çıkaran Ermeni askerleri durmadan ateş ediyorlardı, dışarıya baktığımızda yerde mermi kovanları yoktu. Demek daha öldürmemişler, herhangi harabede işkence yapıyorlarmış...

Hocalı kadar talihsiz çocuklar neredesiniz? Tam 33 yıldır yüreğimiz sızlıyor. Gözlerimiz hala yaşlarla dolu, hala sizi arıyoruz.

Bu gençlerin bazıları bir zamanlar Hocalı okullarında benim öğrencilerimdi. Aralarında, annesinin gözbebeği olan tek oğlu da vardı. Anne, tüm umutlarını, hayallerini ve özlemlerini ona bağlamıştı. O gece, insanlığın, yeryüzü ve gökyüzünün sona erdiği ve yok olduğu geceydi. O gençlerin anne, babaları, oğullarını kaybetmenin acısına dayanamayıp erken yaşta öldüler. Gözlerini ebedi yumduklarında bile, oğullarını arzulamışlar. Bu sözleri yazmak, bunu yaşamak kadar zor ve dayanılmazdır.

Hocalı baştan başa dert, keder, acıdır, insan oğluna, Yaradan`a isyandır. Kurbanlık koyun gibi, göz açıp kapayıncaya kadar 13 canın ışığını acımasızca söndürürsen, bir annenin göğsüne sıcak közleri bastırırsan, onun ciğerlerini yakarsın. Biz dünyadan vazgeçmiştik, gökler bu acıya neden katlandı, bilemedik......

Genç oğullarımız çaresizdi, sadece ölmek için sıranın kendilerine gelmesini bekliyorlardı. İnsanlar çaresizdi, düşmana "Bizi öldür, evlatlarımıza kıyma" diye yalvarıyorlardı.

Acımasız düşman, yaşlı anne babası için 3 oğuldan birini bile bağışlamadı. Bu korkunç bir şey. Bu gençlerin trajik kaderi, sonsuza kadar kalbimizde yerini koruyacak. Hala başlarına gelen korkunç olayların ne olduğu bilinmemekte. Şimdi suçluları adelete teslim etme zamanı. Zafer kazanan devletimizin, sorumluları hak ettikleri şekilde cezalandıracağını umuyoruz.

*Tek yapabileceğimiz onlara haykırmak: Neredesiniz, 13 genç adam? Ses verin sesimize. Kanınız yerde kalmadı, buna emin olun!*

# "BİZ OLMASAYDIQ, KİŞİLƏR ƏSİR DÜŞMƏYƏCƏKDİLƏR..."



**Usubəli Qarayev 1961-ci ildə Xocalıda anadan olmuşdu, Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb. "13-lər"dən biridir. Taleyi məlum deyil...**

O, öz kəndinin qızına aşiq olub, sevərək evlənmişdi. Övladları dünyaya gələndə ata adına sevinib, qürur duymuşdu Usubəli. Övladlarını iş-güc, ev-eşik sahibi etmək üçün gecə-gündüz bilmədən çalışır, alın tərilə halal çörəyini qazanırdı. Təəssüf ki, bu xoşbəxtliyin ömrü çox qısa oldu. Ədalətsiz müharibə onların da həyatını alt-üst etdi.

**Həmin gecənin şahidi, Usubəli Qarayevin həyat yoldaşı İradə Qarayeva xatırlayır:**

– Evdən atam, anam, qardaşım Mehman, bacımın həyat yoldaşı Elçinlə birlikdə çıxdıq. Yolda qonşularımız Famil dayı, həyat yoldaşı rəhmətlik Ofelya xala da bizə qoşuldu. Meşədə bir dəstə adamla bərabər Şelli istiqamətində hərəkət etdik. Kamran dayının oğlu Əlyar qaça-qaça özünü bizə çatdırıb, "Ora getməyin, Qaraqayada güclü atışma var" – dedi. Biz yaralı Aqili xərəkdə gətirirdik, (Aqil Quliyevə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Allah rəhmət елясин). Qaraqayada qarşımızı kəsib camaatı qırdılar. BTR-də gələnlər ruslar idilər. Geriyə qayıtmağa məcbur olduq. Abdal-Gülablıya getməyi qərarlaşdırdıq. Bir təpədə toplaşıb yolumuzu müəyyənləşdirmək istədik. Cavanlardan bir neçəsi

qabağa gedib, orada ermənilərin olub-olmadığını öyrənmək istədi. Gənclərdən biri ağacın arxasında pusquda dayanan erməniyə atəş açdı. Ermənilər bundan duyuq düşdülər. Cavanlar təngnəfəs yanımıza qayıdıb, "İrəliyə getmək olmaz, ermənilər pusquda dayanıb"– dedilər. Bu dəfə də dəstələrə bölünüb müxtəlif istiqamətlərdə getməyə məcbur olduq, lakin yolu azıb erməni postunun üstünə çıxdıq. Yer-göy o gecə qapılarını bağlamışdı üzümüzə…

Hər tərəfi qatı duman bürümüşdü. Bir tərəfdən gözümüz qabağı görmür, digər tərəfdən də yer qar olduğundan addım atmaq çətinləşirdi. İki gün idi yol gəlirdik. Fevralın 26-sı axşamüstü tank səsləri eşidilirdi. Sən demə, yolu azıb Xankəndidəki meşəyə gəlib çıxmışdıq. Hara yön aldığımızı bilməsək də, çarəsizcəzinə gedirdik. Bu vaxt bir xışıltı eşitdik, elə bildik ermənidi, gördük Halay dayı ilə uşaqlarıdır. Həmin mənzərəni görmək, yaşamaq, danışmaq çox ağırdır, uşaqlar ağlaşırdılar. Halay dayının yoldaşı Şərqiyyə xalanın ürəyi dayanıb ölmüşdü. Avtomatın qundağı ilə qəbir qazıb basdırmışdılar, uşaqlar ağlayırdı.

Dəhşətli qorxu, həyəcan bir-birinə qarışmışdı. Yaşadıqlarımız ağlımızı başımızdan almışdı, nə edəcəyimizi, necə edəcəyimizi bilmirdik. Fevralın 27-də yenə də bir dar cığırla irəliləməyə başladıq, yorulub taqətdən düşmüşdük, amma yol getməkdən başqa çarəmiz yox idi. Xeyli getdik, bir də baxdıq ki, 3 gün əvvəl pusquda dayanan erməniyə cavanlarımızın atəş açdığı yerə gəlib çıxmışıq. Burada Azərbaycan dilində "Gəlin, gəlin, qorxmayın" – sözlərini eşitdik. Atam camaata dedi ki, getməyin, ermənilər ola bilər. Mən onlardan xeyli aralıda idim. Şahmar müəllimlə Camal yanımdan keçəndə mənə dedilər ki, sən də bizimlə gəl. Atamı, həyat yoldaşımı qoyub gedə bilmərəm – dedim. Yenə atışma başladı, pərən-pərən ol-

duq. Qardaşım əlində qumbara tutmuşdu ki, əsir düşsək, hamımızı öldürsün. Bəlkə də biz qadınlar olmasaydıq, onlar əsir düşməyəcəkdilər. Yanımızda Müşkülatın körpəsi hey ağlayırdı. Belə davam etsəydi, uşaq gizləndiyimiz yeri bəlli edəcəkdi. Birdən Müşkülat səs salmasın deyə, körpəsini boğdu. Uşaq gömgöy göyərmişdi. Anam "Ay bala, nə etdin, bəlkə bu günahsız körpəyə Allah bizi bağışlayacaq?"– deyib uşağı onun əlindən aldı.

Qarşıda iki yol vardı – biri maşın yolu, o birisi dar cığır. Dar cığırla Abdal-Gülablıya deyil, ermənilərin yaşadıqları Dəhraz kəndinə gedib çıxdıq. Sən demə, xəndəyin içində gizlənsək də, dağın başında dayanan ermənilər bizi görürmüş. Bizi gülləyə tutanda Mehdi Həsənov xəndəkdən çıxıb atəş aça-aça ermənilərə tərəf qaçdı. Onu yerindəcə vurdular. Sonra 10-15 erməni gəlib bizi girov götürdü. Əvvəlcə Dəhraz kəndindəki bir abidənin qarşısına yığdılar. Öyrəndik ki, həmin abidəni Sumqayıtda ölən ermənilərə ucaldıblar. Aramızdakı cavanların silahlarını əllərindən aldılar. Adil dayının oğlu Rövşən yaralı olduğundan, bacı-qardaş, qohum-əqrəba başına toplaşmışdı. Sonra hamımızı gətirib uzun bir tikiliyə saldılar. Ortaya vedrə qoyub dedilər ki, qızıllarınızı, bank kitabçalarınızı bura tökün. Kimin üstündə nəyi vardısa vedrəyə tökdü. Yoldaşımın əynindəki gödəkcəni ermənilər görəndə bərk qəzəbləndilər: "Bu səndə haradandır? Bu gödəkcələr İrəvanda hazırlanır" – dedilər. Həmin gödəkcəni qaynım aeroportdan bir erməni generalından almışdı. Yoldaşım həmin gödəkcənin qurbanı oldu. Bizə nəzarət edən erməni yaraqlısı gödəkcəni yoldaşıma göstərib, "Buna görə sənin ananı ağlar qoyacağam"– dedi.

Kişiləri çölə çıxarıb, paltarlarını soyundurub, amansızcasına döyürdülər. Uşaqlar soyuqdan, acından ağlaşırdılar. Ocaq qaladılar, qapı azacıq aralı olduğundan, gördük ki, qara rəngli

bir hərbi “təcili yardım” maşını gəldi. İçərisindən 10–15 nəfər saqqallı, hərbi formalı erməni düşdü. Onlar İrəvan erməniləri idilər. Bizə nəzarət edən erməni aramızdan 13 nəfəri seçib aparanda qucağımdakı uşaqla erməninin qarşısına keçib, йoldaşımı aparırsansa, məni də apar – dedim. İnadla erməninin qarşısını kəsib dayandım, avtomatın qundağı ilə məni necə vurdusa, xeyli vaxtdan sonra özümə gəldim.

…Martın 1-də bizi azad etdilər, 13 gənci isə hansı tərəfə aparmışdılar, bilmədik. Yalniz 20–30 metr aralıda maşın izi gördük. Atəş səsləri eşitsək də, çölə çıxanda baxdıq, bayırda qan izləri yox idi. Bu gənclərin arasında Zakir, Əlyar, Elşad qardaşları da vardı. Ata-anaları nə qədər yalvarsalar da, onlardan birini belə valideynlərinə vermədilər.

…Neçə gün meşədə soyuqda, qarda qaldığımızdan, haldan düşmüşdük, taqətimiz yox idi. Ayaqlarımızı don vurmuşdu. Güllə yarası alanlarımız da çox idi. Atam bizə nəzarət edən erməniyə yalvardı ki, aramızdakı Məmməd həkimi buraxın, bizi müalicə etsin. Həmin erməni bir atama, bir də bizə baxıb, Məmməd həkimi azad etdi.

O gənclərdən bir daha xəbər almadıq, ata-anaları da bu müsibətə dözməyib, övladlarından az sonra öldülər…

## “EĞER BİZ ORADA OLMASAYDIK ERKEKLER DÜŞMANIN ELİNE GEÇMEYECEKTİ...”

**Usubali Garayev 1961 yılında Hocalı’da doğdu ve 1992 yılında Hocalı katliamı sırasında rehin alındı. O, on üç kişiden biri. Akıbeti hala bilinmemekte.**

Köyünden bir kıza aşık oldu ve onunla severek evlendi. Çocukları doğduğunda babalık rolünden dolayı mutlu ve gururluydu Usubali. Çocuklarına bakmak, onlara bir yuva sağlamak ve kendi emeğiyle helal ekmek kazanmak için gece gündüz yorulmadan çalıştı. Ne yazık ki bu mutluluk kısa sürdü. Adaletsiz savaş onların da hayatını tamamen altüst etti.

**O geceye tanık olan Usubali Garayev’in eşi Irada Garayeva şöyle anlatıyor:**

“Babam, annem, erkek kardeşim Mehman ve kız kardeşimin eşi Elçin ile birlikte evden ayrıldık. Yolda komşularımız Famil Amca ve eşi, rahmetli Ofelya Teyze de bize katıldı. Bir grup insanla birlikte orman içinden Ağdamın Şelli köyüne doğru ilerledik. Kamran amcanın oğlu Elyar bize koşarak geldi ve ‘Oraya gitmeyin, Garakaya’da yoğun çatışma var’ dedi. Yaralı Agil’i sedyede taşıyorduk ve Garagaya’da bizi durdurup insanları öldürdüler. Zırhlı araçtaki insanlar Ruslardı, dedi.”

*(Agil Guliyev, ölümünden sonra Azerbaycan Ulusal Kahramanı unvanı ile onurlandırıldı. Allah rahmet eylesin.)*

“Geri dönmek zorunda kaldık. Abdal-Gulabli’ye doğru yola çıkmaya karar verdik. Rotamızı belirlemek için bir tepede toplandık. Gençlerden birkaçı ilerleyip orada Ermeniler olup olmadığını kontrol etmek istedi. Gençlerden biri, bir ağacın arkasında pusuda bekleyen bir Ermeni’ye ateş etti. Bu, Ermenileri ürküttü. Gençler nefes nefese bize geri dönerek, ‘İleriye

gidemeyiz, Ermeniler pusuda bekliyor' dediler.

Bu sefer gruplara ayrılıp farklı yönlere gitmek zorunda kaldık, ancak yolumuzu kaybettik ve bir Ermeni mevzisinde kendimizi bulduk. O gece, yer, gök kapılarını yüzümüze kapatmıştı.

Yoğun bir sis her şeyi kaplamıştı. Yer karla kaplıydı ve her adım bir öncekinden daha zordu. İki gündür yoldaydık. 26 Şubat akşamleyin tank sesleri duyduk. Meğer yolumuzu kaybetmiş ve Hankendi›deki ormana girmişiz. Hangi yöne gittiğimizi bilmiyorduk ama çaresizlik içinde ilerliyorduk. Bu sırada bir hışırtı sesi duyduk, Ermeni olduğunu sandık; bir de baktık ki Halay amca ile çocukları. O manzarayı görmek, yaşamak, anlatmak çok zor; çocuklar ağlıyordu. Halay amcanın eşi Şergiyye teyzenin kalbi durmuş, vefat etmişti. Silahın dipçiğiyle mezar kazıp defnetmişlerdi, çocuklar ağlıyordu.

Dehşet verici korku ve heyecan birbirine karışmıştı. Yaşadıklarımız aklımızı başımızdan almıştı; ne yapacağımızı, nasıl yapacağımızı bilmiyorduk. 27 Şubat'ta dar bir yolda tekrar ilerlemeye başladık. Yorgun ve bitkindik, ama yürümekten başka çaremiz yoktu. Uzun bir yol aldıktan sonra, üç gün önce pusuya yatan Ermenilere gençlerimizin ateş açtığı yere gelip çıktığımızı fark ettik. Burada Azerbaycan Türkçesinde “Gelin, gelin, korkmayın” sözlerini duyduk. Babam, kalabalığa, gitmeyin, Ermeniler olabilir, dedi. Ben onlardan epey uzaktaydım. Şahmar öğretmenle Camal yanımdan geçerken bana, sen de bizimle gel, dediler. Ben de “Babamı ve eşimi bırakamam” dedim. Yeniden çatışma başladı, darmadağın olduk. Kardeşim elinde el bombası tutuyordu; esir düşersek hepimizi öldürsün diye. Belki de biz kadınlar olmasaydık, onlar esir düşmeyeceklerdi. Yanımızda Müşkülat'ın bebeği durmadan ağlıyordu. Böyle devam etseydi, çocuk saklandığımız yeri ele verecekti.

Bir anda Müşkülat, sesi çıkmasın diye bebeğini boğdu. Çocuk mosmor kesilmişti. Annem, “Ay yavrum, ne yaptın, belki Allah bizi bu günahsız bebeğin hatırına affederdi?” diyerek çocuğu onun elinden aldı.

Önümüzde 2 yol vardı: biri araç yolu, diğeri dar bir patika. Dar patikadan Abdal Gülablı’ya değil, Ermenilerin yaşadığı Dehraz köyüne çıkmıştık. Hendekte saklanmamıza rağmen, dağın tepesinde duran Ermeniler bizi gördüler. Bizi kurşun yağmuruna tuttuklarında Mehdi Hasanov hendekten çıkıp ateş ede ede Ermenilere doğru koştu. Onu olduğu yerde vurdular. Ardından 10–15 Ermeni gelip bizi rehin aldı. Önce Dehraz köyündeki bir anıtın önünde topladılar. Öğrendik ki o anıt Sumgayıt’ta ölen Ermeniler için dikilmişti. Aramızdaki gençlerin silahlarını ellerinden aldılar. Adil amcanın oğlu Rövşen yaralı olduğu için kardeşleri ve akrabaları başına toplanmıştı. Daha sonra hepimizi getirip yüksek bir binanın içine doldurdular. Ortaya bir kova koyup, “Altınlarınızı, banka cüzdanlarınızı buraya atın” dediler. Kimin üzerinde ne varsa kovaya attı. Ermeniler eşimin üzerindeki ceketi görünce çok öfkelendiler: “Bu sende nereden? Bu ceketler Erivan’da üretilir” dediler. Kayınbiraderim o ceketi havaalanında bir Ermeni generalden almıştı. Eşim o ceketin kurbanı oldu. Bizi gözeten Ermeni silahlı, ceketi eşime göstererek, “Bunun yüzünden ananı ağlatacağım” dedi.

Erkekleri dışarı çıkardılar, kıyafetlerini çıkardılar ve acımasızca dövdüler. Çocuklar soğuktan ve açlıktan ağlıyordu. Ateş yaktılar; kapı hafifçe aralık olduğu için siyah renkli askerî bir “ambulans”ın geldiğini gördük. İçinden 10–15 kişi, sakallı ve askerî üniformalı Ermeni indi. Bunlar Erivan Ermenileriydi. Bizi gözeten Ermeni aramızdan 13 kişiyi seçip götürürken, kucağımdaki çocukla onun karşısına geçip, eşimi götürüyorsan

beni de götür, dedim. Ermeninin yolunu kestim ve hareketsiz durdum, otomatik silahın dipçiğiyle öyle bir vurdu ki, uzun bir süre sonra kendime gelebildim.

…Bizi 1 Mart'ta serbest bıraktılar, 13 genci nereye götürdüklerini bilmedik. Sadece 20–30 metre uzakta araç izi gördük. Ateş sesleri duyduk ama dışarı çıkınca baktık ki, dışarıda kan izi yoktu. Bu gençlerin arasında Zakir, Alyar ve Elşad kardeşleri de vardı. Anne-babaları ne kadar yalvarsa da, onlardan birini bile ebeveynlerine vermediler.

…Ormanda günlerce soğuk ve karda kaldığımızdan bitkin düşmüş, gücümüz kalmamıştı. Ayaklarımız donmuştu. Birçoğumuzda kurşun yaraları vardı. Babam, bizi gözeten Ermeni'den aramızda bulunan Doktor Mammad'ı serbest bırakmasını ve bizi tedavi etmesini rica etti. O Ermeni babama ve bize baktı ve Doktor Mammad'ı serbest bıraktı.

O gençlerden bir daha haber alamadık ve anne-babaları bu acıya dayanamayarak çocuklarından kısa bir süre sonra öldüler…

## “ÇOX YORULMUŞAM, ANA…”



**Ülfət İman oğlu Əliyev 1972-ci il avqustun 12-də Xocalıda anadan olmuşdu. Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb. “13-lər”dən biridir. Taleyi məlum deyil…**

Bu dəhşətin rəsmini nə dünyanın ən qüdrətli rəssamı çəkə bilər, nə də ən qüdrətli yazıçısı sözlə ifadə edə bilər. Bu acı yalnız yaşanır, bu çarəsizliyi yalnız Xocalı anaları, oğulları, qızları o gecə yaşadılar – daha doğrusu, yaşamadılar, öldülər. Haradan başlayım, necə bitirim bu acını?

Anasının gözbəbəyi idi Ülfət. Üstündə nanə yarpağı kimi əsirdi. Tək varlığı idi, tutarıydı, ümid dolu həyatı idi oğlu. Ülfətin həyatından nə yazım, necə yazım, bilmirəm. Hərfləri bir-birinin ardınca düzməyə göz yaşlarım imkan vermir. Sən demə, dərdi yazmaq yaşamaq qədər çətin imiş…

Ülfət mənim şagirdim olub. Tərbiyəli, savadlı, intizamlı uşaq idi. Allah ondan heç nəyi əsirgəməmişdi. El arasında deyildiyi kimi, sanki qız gözəlliyi vardı üzündə. Onun parlaq gələcəyinə hamımız inanır və ümid edirdik. Ülfət də inamımızı doğrultdu. Xocalıda orta məktəbi əla qiymətlərlə bitirib. M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna daxil olmuşdu. Oğlunun uğuru taleyindən yarımayan ananın üzünü yenicə güldürməyə başlamışdı. Cəmi bircə il idi ki, ana sevinir, oğlunun boyuna baxıb fərəhlənirdi. Onu da fələk çox gördü. Qarabağın qara günləri başlamışdı. Ülfət təhsilini qi-

yabi davam etdirməyi qərara alıb, Xocalıya qayıdıb yurdunun müdafiəsində dayanırdı. Gündüzlər dərs deyir, Xocalı Rayon Prokurorluğunda tərcüməçi işləyir, gecələr də silahını çiyninə aşırıb kəndini qoruyur, el-obasına dayaq olurdu. Anası onu gözbəbəyi kimi qorusa da, Ülfət başqa gənclərlə bərabər düşmənlə döyüşə girir, Xocalını tərk etmirdi. Nə biləydi ki, taleyinə qar-boran yağacaq, ananın ölüm yatağına qor dolacaq, ürəyi onsuz bir daha isinməyəcək. Qarabağ müharibəsi bu qarabəxt ananın son ümidini də əlindən aldı.

Həmin gündən ana oğlunun dərdini içində səssiz-səmirsiz çəkdi. Bir kəlmə belə danışmadı. Balasından nə yazı yazılmasına, nə bir süjet hazırlanmasına razı oldu.

Zoya xanım artıq həyatda yoxdur. Oğul dərdi çəkə-çəkə ağır xəstəliyə düçar oldu. Xərçəng onu caynağına alıb oğluna apardı.

Aradan xeyli illər ötəndən sonra, bu nakam taleli gəncin həyat hekayəsini sizinlə də bölüşmək istəyirəm. Qoy Zoya xanımın ruhu bizi bağışlasın!

"Haradasınız, "13-lər"dən biri də onun ciyərparəsi Ülfət idi.

**Ülfətin xalası Afət Əliyeva xatırlayır:**

– Həmin gecə anam Çiçək, əmilərim Eldar, Rəfael məhəlləmizdəki adamlarla bərabər çıxıblar. Zoya bacımın taleyi əvvəldən gətirməmişdi. Gənc yaşlarında ailə qursa da, həyatı uğursuz olmuşdu. Ülfəti atasız böyütdü və qara günlərin birində tək ümidi də əlindən getdi. Zoya həmin vaxtdan səsini, üsyanını içinə çəkdi. Göz yaşlarını heç ki-mə göstərmədi. Bir gün onun gözlərində yaş damcıları gördüm. Soruşdum:

– Nə olub, ay bacı?

Dedi:

– Bu gecə Ülfəti yuxuda görmüşəm. Deyirdi ki, ay ana, yaman yorulmuşam.

Zoyanın şəhid qardaşı Əbülfətin həyat yoldaşı Vərziyara dedikləri isə daha tükürpədici idi:

– Evimizdən çıxanda iri bir yun şala bürünmüşdüm. Meşədə ocağın kənarında isinəndə şalın uc tərəfi yanmışdı. Girov götürülən zaman həmin şalla üz-gözümü bərk-bərk bağladım ki, erməni saqqallılarının gözünə dəyməyim. Deyəsən, oğlumun ürəyinə dammışdı ki, ölümün biraddımlığındadır:

– Ana, məni də aparacaqlar. Birdən səsini çıxararsan ha...

**Həmin məşum gecənin daha bir şahidi Zemfira Xudayarova xatırlayır:**

– Uşaqlarımla ayaqyalın, başaçıq çıxdıq evdən. Soyuq, şaxta nəfəsimizi kəsmişdi, yeriyə bilmirdim. Həyat yoldaşım məni sürüyə-sürüyə aparırdı.

Dəhraz kəndi yaxınlığında ermənilər bizi girov götürüb uzun bir tikiliyə gətirdilər. Orada Xocalıdan olan xeyli əsir və girov var idi. Qaynım Rövşən ağır yaralanmışdı. Hərbi geyimdə olanlara amansızlıqla işgəncə verirdilər. Körpələr acından, susuzluqdan ağlaşırdılar. Böyüklərimiz qızların, gəlinlərin üz-gözlərini bağlamışdılar ki, yaraqlıların gözünə dəyməsin. Bir sözlə, dəhşət idi.

Aramızdakı 13 gənci erməni yaraqlıları seçib aparanda ahımız, naləmiz ərşə qalxdı. Meşədə bir buşlat tapıb əynimə geyinmişdim, bərk üşüyürdüm. Erməni yaraqlısı məni avtomatın qundağı ilə vurub yerə yıxdı ki, türklərin qadınları da “boyevik”dir. İnanın, baldızım Brilyant yalvardı ki, o, ruhi xəstədir, ağlı kəsmir, bu buşlatı da meşədən tapıb. Brilyant olmasaydı, məni döyüb öldürəcəkdi. Əsirləri döyüb öldürür, ağlagəlməz işgəncələr verirdilər. Milli Ordunun əsgəri Zahidi o qədər döymüşdülər ki, atası Səttar dayı oğlunu tanıya bilmədi.

…Gecəyarısı erməni yaraqlıları aramızdan 13 gənc oğlanı seçib aparanda Ülfətin anası Zoyanın səsi çıxmadı. Beləcə, 13

say-seçmə oğlumuz qaranlıq gecəyə qarışıb yox oldu. Bayırda saysız-hesabsız güllələr atıldı. Səhəri gün bizi girovluqdan azad etdilər. Çöldə isə qan izinə rast gəlmədik. Həmin gün həyatımın ən dəhşətli səhifəsi oldu...

Haradasan, Ülfət, haradasan? Anandan xəbərin oldumu?!

Səndən sonra anan nələr çəkdi, bildinmi? Son anda çox yoruldunmu, ay bala?! – deyib həyatla vidalaşdı.

*Ey yolçu, Dəhraz kəndinə getsən, oradakı əsir və girovlarımızın saxlanıldığı yerə də baş çək. Orada həmin gənclərin ayaq izləri və çarəsiz baxışları qalıb. Rəsmini çəkməyə cürət edərsənmi, ey rəssam? Bəlkə də Qarabağda tapılan toplu məzarlıqlardan biri də bu gənclərindir? Kim bilir...*

# ÇOK YORGUNUM, ANNE

**Ülfet İman oğlu Aliyev, 12 Ağustos 1972'de Hocalı'da doğdu ve 26 Şubat 1992'de rehin alındı. O, on üç kişiden biri. Akıbeti hala bilinmemekte.**

Ne dünyanın en büyük sanatçısı bu acıyı resmedebilir, ne de en yetenekli yazar kelimelerle tam olarak ifade edebilir. Bu acı sadece hissedilebilir; o gece sadece Hocalı'nın anneleri bunu gerçekten yaşadı  daha doğrusu, bu acıyı yaşamadılar, öldüler. Çünkü bu acının boyutu ve ağırlığı yaşamak için değil, yok olmak içindi. Nereden başlasam ki? Böyle bir acıyı nasıl sonlandırabilir ki insan? Ülfet annesinin gözbebeğiydi; annesi onu nane yaprağı kadar narin bir şekilde severdi. Oğlu onun tek varlığı, desteği, umuduydu.

Ülfet'in hayatını nasıl anlatacağımı, nasıl yazacağımı bilmiyorum. Gözyaşlarım kelimelere dökmemi engelliyor. Meğersem, derdi, kederi yazmak, onu anlatmaktan çok daha zordur.

Ülfet benim öğrencimdi. Terbiyeli, eğitimli ve disiplinli biriydi. Allah ona her şey vermişti. Deyim yerindeyse, yüzünde gençliğin güzelliğini taşıyordu. Hepimiz onun parlak geleceğine inanıyor ve umut ediyorduk. Ülfet bu inancı boşa çıkarmadı. Hocalı'daki liseden mükemmel notlarla mezun oldu ve M.F.Ahundov Rus Dili ve Edebiyatı Enstitüsü'ne girdi. Başarıları, Oğlunun başarısı, talihi yaver gitmeyen annenin yüzünü yeni yeni güldürmeye başlamıştı. Oğlunun büyümesini ve başarılı olmasını izlemek, onun için sadece bir yıllık bir mutluluktu. Hayat bunu bile çok gördü ona. Karabağ'ın karanlık günleri başlamıştı.

Ülfet, eğitimine gıyabi olarak devam etmeye karar verdi, Hocalı'ya döndü ve vatanını savunmaya başladı. Gündüzleri

Hocalı Bölge Savcılığı'nda öğretmenlik ve çevirmenlik yaparken, geceleri tüfeğini omzuna asıp köyünü savunur, halkını destekliyordu. Annesi onu gözbebeği gibi korurdu, ancak Ülfet diğer gençlerle birlikte savaşa gitti ve Hocalı'dan ayrılmadı. Talihine kar, fırtına düşeceğini, annesinin ölüm döşeğine hüzün çökeceğini, kalbinin bir daha onun yokluğunda ısınmayacağını nereden bilebilirdi ki. Karabağ savaşı, bu talihsiz annenin son umudunu da elinden almıştı. O günden sonra, oğlunun acısını sessizce içinde taşıdı.

Tek bir kelime bile etmedi. Oğlu hakkında ne bir makale yazılmasına ne de röportaj hazırlanmasına izin vermedi. Zoya Hanım artık hayatta değil. Oğul yokluğunun acısını çekerken, ciddi bir hastalığa yakalandı. Kanser onu hayattan kopardı. Yıllar sonra, bu talihsiz gencin hikâyesini anlatmak istedim. Zoya Hanımın ruhu bizi affetsin!

"Neredesiniz, 13 genç?" diye sorulan o isimlerden biri de onun tek evladı Ülfet'ti.

**Ülfet'in teyzesi Afet Aliyeva şöyle anlatıyor:**

"O gece, annem Çiçek ile amcalarım Eldar ve Rafael, mahalle halkıyla birlikte dışarı çıkmışlardı. Zoya ablamın kaderi hiçbir zaman yüzüne gülmedi. Genç yaşta evlense de hayatı hep zorluklarla geçti. Ülfet babasız büyüdü ve Zoya'nın en karanlık günlerinden birinde tek umudu da elinden alındı. O günden sonra Zoya sesini de isyanını da içine gömdü. Gözyaşlarını kimseye göstermedi. Bir gün, gözlerinde gözyaşlarını fark ettim.

"Ne oldu abla?" diye sordum.

"Dün gece rüyamda Ülfet'i gördüm. Çok yorgunum anne!" diyordu.

Zoya'nın şehit kardeşi Ebülfet'in eşi Verziyar`a söylediği sözler ise daha da yürek burkandı:

“Evden çıkarken üzerime büyük bir yün şal almıştım. Ormanda ateşin başında ısınırken, şalın ucu tutuştu. Esir alındığımız zaman, o Ermenin gözleriyle göz göze gelmemek için yüzümü o şalla sıkıca kapattı. Görünen o ki, oğlum ölümün bir adım ötede olduğunu hissetmişti.

“‘Anne, beni de götürecekler. Sakın sesini çıkarma ha…’

**O gecenin bir başka tanığı olan Zemfira Hudayarova şöyle anlatıyor:**

“Çocuklarım ve ben evden çıplak ayakla ve başımız açık çıktık. Soğuk nefesimizi kesiyordu ve ben zar zor yürüyebiliyordum. Eşim beni sürükleyerek götürürdü.

Dehraz köyü yakınlarında Ermeniler bizi rehin aldı ve büyük bir binaya götürdü. Orada Hocalı’dan gelen birçok esir ve rehine vardı. Kayınbiraderim Rövşen ağır yaralanmıştı. Askeri üniforma giyenler acımasızca işkence gördü. Bebekler aç ve susuzluktan ağlıyordu.

Büyüklerimiz, militanların onları görmemesi için kızların ve gelinlerin gözlerini kapatmıştı. Kısacası, çok korkunçtu. Ermeni militanlar içimizden 13 genci seçip götürdüklerinde, iç çekişlerimiz ve feryatlarımız göğe yükseldi.

“Ormanda bir ceket buldum ve sırtıma geçirdim. Donuyordum. Ermeni militan makineli tüfeğinin dipçiğiyle bana vurdu ve beni yere devirerek Türk kadınlarının da “boyevik” olduğunu söyledi. Baldızım Brilliant, akli dengemin yerinde olmadığını, deli olduğumu, ceketi de ormanda bulduğumu söyledi. Brilliant olmasaydı, beni oracıkta döve döve öldürecekti.”

Rehineleri dövüp öldürdüler, onlara hayal edilemeyecek işkenceler yaptılar. Silahlı Kuvvetler’in askeri olan Zahid’i o kadar şiddetli dövdüler ki, babası Settar Dayı bile kendi oğlunu tanıyamadı. Ermeni militanlar gece yarısı aramızdan 13 genç adam seçip götürdüklerinde, Ülfet’in annesi Zoya sessiz kaldı.

Böylece, seçilen on üç oğlumuz gecenin karanlığında kayboldu. Dışarıda sayısız kurşun atıldı.

Ertesi sabah bizi serbest bıraktılar, ama dışarıda kan izi bulamadık. O gün hayatımın en korkunç günüydü. Neredesin Ülfet? Neredesin? Annenden haber aldın mı? Annenin senden sonra neler çektiğini biliyor musun? Son anda çok mu yoruldun yavrum? dedi ve hayata veda etti.

*Ey yolcu, Dehraz köyüne gidersen, esir ve rehinelerimizin tutulduğu yeri ziyaret et. O gençlerin ayak izleri ve çaresiz ifadeleri orada duruyor. Ey Ressam, onların resmini çizmeye cesaretin var mı? Belki de Karabağ'da bulunan toplu mezarlardan biri de bu gençlerindir... Kim bilir...*

# ATA ƏSİR DÜŞDÜ, OĞLU GÜLLƏLƏNDİ…



**Tofiq Aslan oğlu Zeynalov 1958-ci ildə anadan olmuşdu. Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb. "13-lər"dən biridir. Taleyi məlum deyil…**

Tofiq çoxuşaqlı ailədə anadan olub. Onlar Xocalıya Daşbulaqdan köçüb gəlmişdilər. Zeynalovlar ailəsi dağda-aranda mal-qara saxlayıb, bir çətən külfəti dolandırıblar. Həyatın çox çətinliklərinə sinə gərən Sayalı ana övladlarını halallıqla böyüdüb, əllərini çörəyə çatdırıb, ev-eşik sahibi etmişdi. Tikib-qurduqları evlərinə baxanda valideynin sevinci köksünə sığmır, Yaradana şükür edirdi.

Başlarına gələcək müsibətlərdən xəbərsiz idilər bütün xocalılılar kimi. Minbir zəhmətlə tikib-qurduqlarının bir gün yerləyeksan olacağını ağıllarına da gətirməzdilər.

**Tofiqin qardaşı Oruc Zeynalov deyir:**

– Qardaşım Tofiq Xocalının Qaladərəsi kəndində mağaza müdiri işləyirdi. Səhhətində problemlər yarandığından, 1991-ci ilin dekabrında müalicə olunmaq üçün Özbəkistana getmişdi. Orada 3 ay müalicə olunduqdan sonra yenidən Xocalıya qayıtmışdı.

Həmin ilin fevralın 25-dən 26-na keçən gecə ailəmizin həyatında dəhşətli izlər buraxdı. O faciəni çəkə bilməyənlərimiz az sonra dünyasını dəyişdilər, bizlər də ömürboyu həmin dərdin, faciənin kabusu ilə yaşayırıq. Qardaşım Tofiq camaatla birlikdə Xocalıdan çıxanda ümid edirdi ki, insanlar, heç olmasa, sağ-salamat Ağdama yetişəcək. Meşənin bir tərəfində isə həyat yoldaşı Tovuz 10 yaşlı oğlu Elşadı və 6 yaşlı qızı Aynurəni ölümün pəncəsindən qurtarmaq üçün ölümlə, zülmlə üz-üzə idi. Qızını kürə-

yinə şəlləyib, oğlunun da əlindən tutub qaçırdı ki, soyuqdan tir-tir əsən balalarını Ağdama çatdıra bilsin. Dəhraz kəndi yaxınlığında kürəyinə bağladığı qızına dəyən güllə onun da biləyini sındırır. Nə qədər çalışsa da, balasını qaldırıb kürəyinə bağlaya bilmir. Bu vaxt yaxınlıqda partlayan mərmidən sonra ana yaralı qızını və oğlunu itirir. Onları axtara-axtara Ağdama gəlib çıxır. Meşədə qalan yaralı qızcığaz qardaşının qucağındaca iki gündən sonra canını tapşırır. Taleyə bax, meşənin o biri üzündə isə yorulub taqətdən düşmüş ata çarəsiz halda yoldaşını, körpə balalarını axtarırdı. Tofiqin meşədə qaldığını eşidən Nadir onun arxasınca Ağdamdan yenidən Kətik meşəsinə gəlib qardaşını tapır. Çəkmələrini çıxarıb qardaşının islanmış ayaqqabıları ilə dəyişir. Camaatla birlikdə yollarına davam edirlər. Pusquda dayanan ermənilər yüksəklikdə olduqlarından, Şahmar dayı təslim olmağı məsləhət bilir. "Əks halda, qadına, uşağa baxmadan ermənilər yüksəklikdən hamını güllələyər" – deyir. Beləcə, qadınlara və uşaqlara görə kişilər silahlarını yerə qoyub təslim olurlar. Tofiqin qardaşı Nadirlə başqa biri silah götürüb ermənilərə atəş aça-aça onlara tərəf qaçır. Hər ikisi döyüşdə şəhid olur. Dəhraz kəndindəki fermada girov götürülənlərin arasından seçib apardıqları 13 gəncdən biri də Tofiq Zeynalov olur.

Tofiqin bacısı Validə də gülləyə tuş gəlir. Bədənindəki güllə yarası sağalsa da, ürəyinə vurulan dərd sağalmır. Milli Ordunun əsgəri olan qardaşı Eldar da itkin düşür. Taleyi bu günə qədər məlum deyil. Bu talesiz ailədən yalnız Tofiqin oğlu Elşad sağ qalır. Həyat yoldaşı Tovuz da çox yaşamır, çəkdiyi faciələrə dözə bilməyib həyatdan köçür.

Dili ağılı-bayatılı Sayalı xala sinəsində üç oğul, nəvə, yeznə dərdi ilə dünyasını dəyişir. Aslan dayı da dözmədi bu dərdə, həyatdan köçdü. Onların məzarları Oğuzdadır.

*Ey yolçu, Oğuza yolun düşsə, Sayalı ananın məzarına baş çək. Orada bu dərdli anaya bir laylay de. Axı o, övladlarına, nəvəsinə çox laylay çalmışdı.*

# BABA ESİR ALINDI, OĞLU VURULDU

**Tofig Aslan oğlu Zeynalov 1958 yılında doğdu. 26 Şubat 1992 tarihinde rehin alındı. On üç kişiden biriydi. Akıbeti hala bilinmemekte.**

Tofig, Daşbulak'dan Hocalı'ya taşınan büyük bir ailenin çocuğu olarak dünyaya geldi. Zeynalov ailesi dağlarda sığır yetiştirir ve bu işten geçimini sağlardı. Hayatında birçok zorlukla karşılaşmış olan Sayalı Anne, evlatlarını helal lokma ile yetiştirmiş, geçimlerini ve ev sahibi olmalarını sağlamıştı. Kendi inşa ettikleri evlerine baktığında, bir anne olarak sevinci yere göğe sığmıaz, Yaradan'a şükrederdi.

Onlar da, Hocalı halkının tamamı gibi, başlarına gelecek felaketlerden, Büyük emekle inşa ettikleri her şeyin bir gün yok olacağından habersizdiler.

**Tofig'in kardeşi Oruc Zeynalov şöyle anlatıyor:**

"Kardeşim Tofig, Hocalı'nın Galadere köyünde mağaza müdürü olarak çalışıyordu. 1991 yılının Aralık ayında sağlığı bozuldu ve tedavi için Özbekistan›a gitti. Orada üç ay kaldıktan sonra iyileşti ve geri döndü. Fakat 25-26 Şubat gecesi ailemizin hayatında korkunç izler bıraktı. Bu felaketi taşıyamayanlarımız kısa süre sonra vefat etti, bizler ise ömür boyu o acının, o trajedinin kabusu ile yaşamaya devam ediyoruz.

Kardeşim Tofig, halkımızla birlikte Hocalı'dan çıktığında, en azından bazılarının Ağdam'a sağ salim ulaşacağını umuyorduk. Ormanın diğer tarafında, kardeşim Tofig'in eşi Tovuz, 10 yaşındaki oğulları Elşad ve altı yaşındaki kızları Aynura'yı ölümün pençesinden kurtarmak için ölüm ve zorluklarla mücadele ediyordu. Kızını sırtına bağlayıp oğlunun elini tutarak soğukta koşuyordu. Tek düşüncesi Ağdam'a ulaşmaktı.

Ancak Dehraz köyü yakınlarında, bir kurşun kızına isabet etti ve aynı anda kendi bileğini kırdı. Ne kadar uğraşsa da, yaralı çocuğunu yeniden omuzlarına kaldıramadı. Bu zaman yakınlarda

patlayan top mermisinden sonra, anne hem yaralı kızını hem de oğlunu kaos içinde kaybetti. Evlatlarını araya-araya Ağdam'a ulaştı. Ormanda kalan yaralı kız, iki gün sonra kardeşinin kollarında hayatını kaybetti.

Hayatın işine bak, ormanın diğer ucunda işkenceden yorgun düşen Tofig, karısını ve çocuklarını çaresiz bir şekilde arıyordu. Kardeşinin hala ormanda olduğunu duyan Nadir, Agdam'dan Ketik ormanına doğru yola çıktı ve onu buldu. Kendi botlarını çıkarıp Tofig'in sırılsıklam olan botlarıyla değiştirdi ve insanlarla birlikte yola devam ettiler.

Yüksek bir tepeden pusuda bekleyen Ermeniler, grubun hayatta kalmasını tehdit ediyordu. Şahmar amca teslim olmanın daha akıllıca olduğuna karar verdi: "Aksi takdirde Ermeniler kadınlar ve çocuklar dahil yukarıdan herkesi vuracaklar" dedi. Böylece erkekler silahlarını bırakıp kadınlar ve çocuklar için teslim oldular. Ancak Tofig'in kardeşi Nadir ve başka bir adam silahlarını tekrar aldılar, ileriye koştular ve düşmana ateş açtılar. İkisi de çatışmada şehit oldu.

Tofig Zeynalov, Dehraz köyündeki çiftlikte rehin alınan 13 genç adamdan biriydi. Kız kardeşi Valida da vuruldu. Vücudundaki kurşun yarası zamanla iyileşti, ancak kalbindeki yaralar asla iyileşmedi. Silahlı Kuvvetlerde asker olan kardeşi Eldar da kayıplar arasındave bugüne kadar akıbeti bilinmemekte.

Bu talihsiz aileden sadece Tofig'in oğlu Elşad hayatta kaldı. Karısı Tovuz  çok yaşamadı, yaşadığı acıların yükünü kaldıramayarak kısa bir süre sonra vefat etti. Bir zamanlar bilge ve güçlü bir kadın olan Sayalı teyze de üç oğlu, bir torunu ve eniştesinin acısını taşıyarak bu hayattan ayrıldı. Aslan dayı da acının ağırlığı ile artık hayatta değil. Onların mezarları şimdi Oğuz'da bulunuyor.

*Ey yolcu, eğer Oğuz'a yolun düşerse, Anne Sayalı`nın mezarını ziyaret et. Orada, bu acılı anne için bir ninni söyle. Ne de olsa, o da bir zamanlar çocukları ve torunları için pek çok ninni söylemişti.*

# “ÜÇ OĞULDAN BİRCƏSİNİ BİZ QOCALARA BAĞIŞLA...”



**Zakir Kamran oğlu Usubov 1965-ci ildə,**

**Əlyar Kamran oğlu Usubov 1967-ci ildə,**

**Elşad Kamran oğlu Usubov 1974-cü ildə Xocalıda anadan olmuşdular.**

**Xocalı soyqırımı zamanı– 1992-ci il fevralın 26-da girov götürülüblər. “13-lər”dən üçüdür Taleləri məlum deyil…**

Onların ata-babaları Qərbi Azərbaycanın Dərələyəz mahalından gəlmişdilər. Tale onları Xocalıya yönəltmişdi. Övladları Kamran dayı ilə Matan xalanın toyları da Xocalıda olmuşdu. Onda İkinci dünya müharibəsinin yaraları hələ sağalmamışdı. Bu müharibədə xocalılıların neçə-neçə oğlu qurban getmiş, evlərin çırağı sönmüşdü.

Müharibə hər evə dərd-kədər gətirmişdi. Hər bir ailə aclıq, yoxsulluq içində yaşayırdı. “Gün gələr, biz də ağ gün görərik” – ümidi ilə yaşamışdılar.

Kamran dayı ilə Matan xalaya Allah 10 övlad vermişdi – 9 oğul, 1 qız. Mavigözlü uşaqlar bir-birindən yaraşıqlı idilər. Qardaşlar tək bacının başına pərvanə kimi dolanır, əzizləyirdilər. Doqquz oğlun, bir qızın sevinci ilə dolub-daşırdı ev-eşikləri. Bu oğullar böyüdülər, ata-analarına dayaq oldular. Bir neçəsi uzaq Yakutiyada yaşayıb, ailələrinə maddi dəstək oldu. Kəndə gələndə qohum-əqrəba onları hörmətlə qarşılayır, hər gəlişləri toy-bayram olurdu.

Beləcə, aylar, illər ötürdü. Ailənin üzü yenicə gülməyə başlamışdı ki, Qarabağ müharibəsi başladı. Hər dəqiqəsi qorxu, vahimə içində keçən hər günün biri bu ailənin də həyatını qaraltdı. Görəcəkli günlərimiz qabaqdaymış…

**Qardaşların yeganə bacısı Sevil Usubovanın xatirələri:**

– Xocalıdan 1992-ci il fevralın 13-də sonuncu vertolyotla çıxdıq. Qardaşım Zakirin həyat yoldaşı ilə birlikdə Xocalını gözüyaşlı tərk etdik. Gəlinimiz hamilə idi. Çox darıxırdım, anamgilin yanında olmaq istəyirdim.

**– Onda neçə yaşın vardı?**

– 14 yaşıм вар иди. Fevralın 25-də anam zəng edib dedi ki, darıxmayın, bir-iki günə yollar açılacaq, gələcəksiniz. Həmin gün bir jurnalist zəng etmişdi, bizdən vəziyyəti öyrənmək istəyirdi. Dedim ki, bir-iki günə yollar açılacaq. Sən saydığını say, gör fələk nə sayır. Çox sevinmişdim həmin gün. Sən demə, gecə Xocalı yerləyeksan edilmişdi. Səhər tezdən qapımız bərkdən döyüldü. Böyük qardaşımın həyat yoldaşı Zərifə ağlaya-ağlaya içəri girib: "Hamını öldürdülər, hamını öldürdülər" – deyib qışqırırdı. Ayağından güllə yarası almışdı, qanı süzülürdü. Mən qaça-qaça küçəyə çıxanda bizimkilər arxamca gəlib məni sakitləşdirməyə çalışırdılar. Sakitləşə bilmirdim, atam-anam, qardaşlarım haradadırlar, öldülərmi, girov götürüldülərmi, bilmirdim. Ən çox da Əlyarı gözləyirdim. "O, hökmən gələcək" – öz-özümə deyirdim. Tovuz nənəm, gəlinimiz Nəzakət və mən Ağdam Rayon Xəstəxanasına getdik. İlahi, dəhşət idi, qışqırtıdan, bağırtıdan qulaq tutulurdu, həyatımda gördüyüm ən dəhşətli mənzərə idi ora. Ailəmizdən heç kimi tapa bilmədik, yaralıların arasında da bizimkilərdən bir kəs yox idi. Ağdam məscidinə baş çəkdik. Ölənlərin arasında da yox idi bizimkilər. Düz, üç gün gecə-gündüz orada qaldıq.

Sonradan öyrəndik ki, bizim və əmimgilin ailəsi girov götürülüb. Atam-anam və əmimi azad etdikləri günü heç vaxt ya-

dımdan çıxarmaram. Anama: “Bəs qardaşlarım hanı?” – deyə sual verdim. Anam batıq səslə: “Əlimdən aldılar balalarımı” – deyib fəryad çəkdi.

Aradan uzun illər keçib, yaralarımız sağalmayıb, mən ümidimi hələ də üzməmişəm, indi də gözləyirəm qardaşlarımı, ən çox da Əlyarı. Ah müharibə, yaram olduğu kimi təzədir, hər gün sızıldayır, qardaşlarımın həsrətindən gündə yüz dəfə ölüb-dirilirəm. Anamı girovluqdan gələndə tanımadım, bir gecədə saçları ağarmış, yaşlanmış, qocalmışdı, sanki bir gecədə 100 acı il yaşamışdı. Anam daha məni qoymadı xəstəxananın, məscidin qabağına gedim. Özü nənəmlə hər gün gedirdi və evdən “balalarım”– deyib ümidlə çıxırdı. Bir gün anam mənə dedi ki, bala, ümidini kəsmə, qardaşların gələcək, onlar erməniyə hələm-hələm can verən deyillər. Anamın o sözü, düz, 31 ildi qulaqlarımdan getmir ki, getmir...

**– Anan sənə daha nələri danışmışdı?**

– Deyirdi ki, bizi girov götürüb Dəhraz kəndindəki iki hissəyə bölünmüş uzun bir tikiliyə gətirdilər. Halay əmin və oğlu o biri hissədə idi, onları görmürdük. Bizə 13-14 “boyevik” nəzarət edirdi. Biz 200–300 nəfər olardıq. Üstümüzdə götürdüyümüz qızılları, pulları, pul kitabçalarını əlimizdən aldılar. Saqqallılar aramızdan 13 gənci seçib apardılar, onlardan üçü qardaşların idi. Balalarımın baxışlarını heç vaxt unuda bilməyəcəyəm. Saqqallılar balalarımı aparanda yalvardım, ayaqlarına döşəndim ki, barı, bircəsini biz qocalara bağışlayın. Tüfəngin qundağı ilə məni vurub yıxdı, özümdə güc tapıb yenidən qalxıb balalarıma sarı gedəndə bu dəfə saçımdan tutub necə itələdisə, daha qalxa bilmədim.

**– Anan oraya BQXK-nin nümayəndəsinin gəldiyinin şahidi olmuşdumu?**

– Xeyr, olmayıb. Hər kəs də bunu təsdiq edər, orada BQXK-nin nümayəndəsi olmayıb. Girovların arasında Məmməd həkim də olub.

**– Onun azad olunması ilə bağlı anan nə söyləmişdi?**

– Anam dedi ki, artıq balalarım əlimdən getmişdi. Atan, mən, Kamran dayın ermənıyə yalvardıq ki, Məmməd həkimi azad edin, bizə baxsın. İlanın ağına da, qarasına da lənət, amma bu erməni yalvarışlarımızdan sonra Məmməd həkimi azad etdi. Həmin erməni dedi ki, Bakıdan köçən bacılarıma azərbaycanlılar çox kömək edib.

Üç oğlu əlindən gedən Matan xala, Aydın dayı necə böyük ürəyə sahib imişlər. Övladlarının, yeznələrinin ağır itkisini yaşadıqları halda, həkimin həyatını qurtarıblar. Məmməd həkim hazırda "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş və "Əməkdar həkim" adını almışdır.

**Matan xala qızına bunları da söyləyib:**

– Həmin qəddarlıq yağan gecədə ah-naləmiz ərşəyə qalxmışdı. Üzümüzə bağlanan qara qapılar bir daha açılmadı. Səhəri gün saat 11:00-da bizi girovluqdan azad etdilər. Hey o tərəf-bu tərəfə boylandıq, 13 övladımızı axtarırdıq, onların arasında mənim üç balam da vardı, amma bir nişanələrini tapa bilmədim. Yoldaşım deyirdi ki, uşaqları aparandan sonra lap uzaqdan güllə səsləri eşitdim. Boyeviklərin danışığından duyduq ki, deyəsən, bizimkilər onların böyük rütbəlisini öldürmüşdülər. Girovların arasında erməni dilini bilənlər var idi...

Bu talesiz ata-ana sinələrində üç oğul dərdi yaşatdığı az imiş kimi, iki oğulları da faciəli şəkildə həyatlarını itirirlər. Bu dərdə dözə bilməyən ata-ana çox yaşaya bilmədi, övladlarının yanına tələsdilər. Nur içində yatsınlar!

*Ey yolçu, Xocalıya getsən, Matan xala ilə Kamran dayının evinə də dön, minbir ümidlə böyütdükləri 5 oğul dağı var sinələrində. Orada bəlkə bu yaraşıqlı oğlanların bir izinə rast gələrsən. O zaman bu talesiz ata-ananın ruhları şad olar.*

# ÜÇ OĞULDAN BİRİNİ BİZE, YAŞLILARA BAĞIŞLA

**Zakir Kamran oğlu Usubov (1965),**
**Elyar Kamran oğlu Usubov (1967),**
**Elşad Kamran oğlu Usubov (1974) Hocalı'da doğdular.**

Soykırım sırasında rehin alındılar 13 kişiden üçü. Kaderleri hala bilinmemekte. Ataları Batı Azerbaycan'ın Dereleyez bölgesinden gelmiş ve kader onları Hocalı'ya getirmişti. Evlatları Kamran Dayı ve Matan Teyze'nin düğünleri de Hocalı'da yapılmıştı.

O zamanlar, İkinci Dünya Savaşı'nın yaraları henüz tam olarak iyileşmemişti. O savaşta, Hocalı'nın birçok oğlu da hayatını kaybetmiş ve birçok evin ışıkları sönmüştü. Savaş, her eve keder ve üzüntü getirmişti. Her aile açlık ve yoksulluk içinde yaşıyordu. Yine de bir gün parlak günlerin geleceğine inanarak umutla yaşıyorlardı. Allah, Kamran dayı ve Matan teyze'ye 10 çocuk armağan etti. Dokuz oğul ve bir kız. Bu mavi gözlü çocukların hepsi çok güzeldi. Erkekler, alev etrafındaki pervaneler gibi kız kardeşlerinin üzerinde koruyucu bir şekilde dolanırlardı.

Evleri dokuz oğul ve bir kızın sevinciyle doluydu. Bu oğullar büyüdü ve anne babalarına destek oldu. Onlardan birkaçı uzaklarda, Yakutistan'da yaşıyordu ve ailelerine maddi yardım sağlıyordu. Köye döndüklerinde akrabaları onları saygıyla karşılıyor ve her ziyaret, sanki bir düğün, bir kutlama gibiydi. Böylece aylar ve yıllar geçti. Aile daha yeni gülümsemeye başlamışken Karabağ savaşı başladı. Korku ve panik içinde geçen günler bu ailenin hayatını karanlığa gömdü.

**Erkeklerin tek kız kardeşi Sevil Usubova şöyle anlatıyor:**

“13 Şubat 1992’de son helikopterle Kardeşim Zakir’in eşiyle birlikte Hocalı’dan gözyaşlarıyla ayrıldık. Gelinimiz hamileydi. Çok sıkılıyordum; annemle birlikte olmak istiyordum.

**O zamanlar kaç yaşındaydın?**

14 yaşındaydım. 25 Şubat akşamı annem aradı ve “Merak etme, yollar bir iki güne açılır, sen de gelirsin.” dedi. O gün bir gazeteci arayıp durumu sordu. “Bir iki güne açılır.” dedim. Ama sen istedigin kadar say, Kaderin neleri saydığına bak, demişler. O akşam çok mutluydum.

Meğersem o gece Hocalı yerle bir edildi. Ertesi sabah erkenden kapımız gürültülü bir şekilde çalındı. Ağabeyimin karısı Zarife, ağlayarak ve “Herkesi öldürdüler, herkesi öldürdüler!” diye bağırarak içeri girdi. Bacağında kurşun yarası vardı ve kan akıyordu. Sokağa koştuğumda bizimkiler peşimden koşup beni sakinleştirmeye çalıştı ama ben sakinleşemiyordum. Annemin, babamın ve kardeşlerimin nerede olduğunu bilmiyordum; ölmüşler mi yoksa rehin mi alınmışlardı? En çok Elyar’ı bekliyordum. “Kesinlikle gelecek,” diye sayıkladım kendi kendime.

Büyükannem Tovuz, gelinimiz Nezaket ve ben Ağdam Merkez Hastanesi’ne gittik. Aman Tanrım, korkunçtu; çığlıklar ve bağırışlar sağır ediciydi. Hayatımda gördüğüm en korkunç manzaraydı.

Ailemizden kimseyi bulamadık ve yaralılar arasında bizimkilerden kimse yoktu. Ağdam Camii’ni de ziyaret ettik ama ölüler arasında kimseyi bulamadık. Tam üç gün üç gece orada kaldık. Sonra ailemizin ve amcamın ailesinin rehin alındığını öğrendik.

Annemle babamın serbest bırakıldığı günü asla unutamam. Anneme, “Kardeşlerim nerede?” diye sordum. Annem “Çocuklarımı benden aldılar.” diye bağırdı. Yıllar geçti, yaralarımız iyileşmedi, umudumu kaybetmedim ve şimdi hâlâ kar-

deşlerimi, özellikle de Elyar'ı bekliyorum. Ah savaş, yaralarım hala taze; her gün sızlıyor. Kardeşlerimi özlediğim için günde yüzlerce kez ölüp diriliyorum.

Annem esaretten döndüğünde onu tanıyamadım; saçları bir gecede ağarmış, sanki bir gecede acı dolu yüz yıl çekmiş gibi yaşlanmıştı. Annem artık ne hastaneye ne de camiye gitmeme izin veriyordu. Her gün büyükannemle dışarı çıkar, her gün umutla 'Çocuklarım' diye seslenerek evden çıkardı. Bir gün annem bana, 'Evladım, umudunuzu kaybetmeyin, ağabeylerin gelecek, abilerin ermenilere can vermezler' dedi. Annemin sözleri tam 33 yıldır kulaklarımda çınlıyor.

**Annen sana başka ne anlattı?**

"Bizi rehin alıp Dehraz köyünde ikiye bölünmüş yüksek bir binaya götürdüklerini söyledi. Halay Amca ve oğlu diğer taraftaydı; onları görmedik. On üç-on dört "boyevik" adam bizi gözetliyordu. Biz neredeyse 200-300 kişiydik. Taşıdığımız altınları, parayı ve cüzdanları aldılar. Sakallı adamlar aramızdan on üç genci seçip götürdü."

Onlardan üçü de senin kardeşindi. Çocuklarımın yüzlerindeki ifadeyi asla unutamam. Sakallı adamlar çocuklarımı alıp götürdüklerinde onlara yalvardım, ayaklarına kapandım, en azından birisini bize bağışlamaları için yalvardım. Tüfeklerinin dipçiğiyle vurup yere serdiler, ama tekrar ayağa kalkıp çocuklarımın yanına gidecek gücü bulduğumda saçlarımdan tutup beni öyle bir ittiler ki bir daha ayağa kalkamadım.

**Annen Uluslararası Kızıl Haç Komitesi temsilcisinin oraya gelişine tanık oldu mu?**

"Hayır, herkes bunu doğrulayacaktır; orada bir Uluslararası Kızıl Haç Komitesi temsilcisi yoktu. Rehineler arasında Doktor Mammad da vardı.."

**Anneniz Doktor Mammad`ın serbest bırakılması hakkında ne söyledi?**

Annem çocuklarının çoktan elinden gittiğini; kendisinin, babamın ve Kamran dayının, Ermeni'ye en azından doktoru serbest bırakması için yalvardığını söyledi. Böylece hepimiz yaralı olduğumuz için bize bakabilirdi. Denize düşen yılana sarılır, ama bu Ermeni yakarışlarımız sonucunda Doktor Mammad serbest bırakıldı. O Ermeni, Azerbaycanlıların Bakü'den gelen kız kardeşlerime yardım ettiğini söyledi.

Üç oğlunu kaybeden Matan Teyze ve Aydın Dayı`nın nasıl da koca yüreklilerdi. Çocuklarını ve torunlarını kaybetmelerine rağmen doktorun hayatını kurtardılar. Doktor Mammad şu anda Azerbaycan Bayrağı Nişanı ile ödüllendirildi ve "Emektar Doktor" unvanını aldı.

**Matan Teyze daha sonra kızına şunları anlattı:**

O gece inlemelerimiz tavana kadar ulaştı. Yüzümüze kapanan kara kapılar bir daha açılmadı.

Ertesi sabah saat 11'de bizi serbest bıraktılar. On üç evladımızı, üçü benim çocuğum, her yerde aradık ama hiçbir iz bulamadık. Eşim, çocukları götürdükten sonra uzaktan silah sesleri duyduğunu söyledi. Rehineler arasındaki konuşmalardan, adamlarımızın muhtemelen üst düzey subayları öldürdüğünü öğrendik. Bazı rehineler Ermenice biliyordu...

Sanki yüreklerindeki üç evladının acısı yetmezmiş gibi iki oğlunu da trajik bir şekilde kaybettiler. Bu acıya dayanamayan anne ve baba, fazla yaşayamayıp çocuklarına kavuştular. Allah rahmet eylesin.

*Ey yolcu, Hocalı'ya gidersen, yüreklerinde binbir umutla büyüttükleri 5 oğlunun hatırasını taşıyan Matan Teyze ve Kamran Dayı`nın evine git. Belki orada bu yakışıklı oğulların bir izine rastlarsın. O zaman belki de talihsiz anne babanın ruhları bir nebze huzur bulur.*

## “ÜRƏYİMƏ DAMMIŞDI Kİ, RÖVŞƏNİ DAHA GÖRMƏYƏCƏYƏM...”



**Rövşən Qaçay oğlu Həsənov 1958-ci ildə Xocalıda anadan olmuşdu. Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb.“13-lər”dən biridir. Taleyi məlum deyil...**

Üçrəngli bayrağımızı Xocalıya ilk gətirən Rövşən olmuşdu. Bayrağımızı Xocalının girəcəyinə asıb, düşmənə gözdağı vermişdi. Qanlı Yanvar abidəsi də onun təşəbbüsü ilə Xocalı qəbiristanlığında qoyulmuş və ildönümü keçirilmişdi. Həmin abidənin önündə Xocalı soyqırımının qurbanı Səadətin ürəkyanğısı ilə söylədiyi “Ağla, qərənfil, ağla”şeiri hələ də qulaqlarımdan getməyib.

Rövşənin dədə-babası Qərbi Azərbaycanın Dərələyəz mahalından idi. Tale onları da Xocalıya gətirmişdi. Qaçay müəllim kəndimizin sayılan-seçilən ziyalılarından idi. Beş bacının bircə qardaşı Rövşən savadlı, bacarıqlı və qorxmaz gənclərimizdən biri idi. Neft-Kimya İnstitutunu bitirib, ixtisaslı kadr kimi Xocalıya qayıtmışdı. Xocalı Rayon Kommunal Təsərrüfat İdarəsinin müdiri işləyirdi. Böyük arzuları, ümidləri vardı. Ermənilərin qara niyyəti çox gəncimiz kimi, Rövşənin də arzusunu gözündə qoydu...

Həyat yoldaşı Almaz xanımla söhbətimiz kədərə köklənmişdi. O, həyat yoldaşı ilə bağlı xatirələrini danışdıqca göz yaşlarını saxlaya bilmir, yarası təzəymiş kimi, sanki üstündən 31 il keçməyib. Almaz xanım deyir:

– Meşəlidə ermənilərin törətdikləri faciə Rövşənə pis təsir etmişdi.

Ümidsizləşmişdi, heç nə gözünə görünmürdü. Xocalıda yeni tikilmiş beşmərtəbəli binadan ev almışdıq, ora köçmək xəyalları ilə yaşasaq da, elə xəyal olaraq qaldı. Heç vaxt unutmaram, hər il dekabrın 31-də şam ağacı bəzəyərdik. Ailəmiz süfrə başına toplaşar, fişənglər atılar, kəndimizdə çal-çağır olardı. Köhnə ili yola salıb, yeni ili qarşılayardıq.

1991-ci ildə deyirdi ki, yeni ili təzə evimizdə qarşılayar, bayramı orada keçirərik. Qismət olmadı. Həmin gün –1991-ci il dekarın 31-də Rövşən hövlnak evə gəlib, həyəcanla, yığışın, sizi hava limanına aparıram, Ağdama yola salacağam – dedi. Tələm-tələsik yır-yığış edib Xocalı aeroportuna gəldik. Balalarını bağrına basıb öpüb-qoxladı, ayrılmaq istəmirdi övladlarından. Bizi vertolyota mindirib, arxamızca xeyli baxdı. Sən demə bu, bizim onunla son görüşümüz imiş. Həmin günü heç vaxt unutmayacağam. Hər ilin bugünü necə xoşbəxt idik, ay Allah! Bu il isə evimizdə şam ağacı qurulmayacaq, işıqlarımız yanmayacaqdı. Xocalı zülm, acı, qaranlıq dolu bir kabusa çevrilmişdi. Hər gecə top-qrad atəşinə tutulurdu. Dörd ay idi Xocalı qazsız-işıqsız qalmışdı, ərzaq tükənmişdi.

Ağdama çatanda hönkür-hönkür ağladım. Ürəyimə dammışdı ki, Rövşəni daha görməyəcəyəm, yeni mənzilimizə köçə bilməyəcəyik.

**Həmin qanlı gecənin canlı şahidi Rövşənlə birlikdə gələn qaynatası Famil dayı xatırlayır:**

– Ermənilər Xocalının içərilərinə doğru irəliləyirdi. Məhəlləmizin adamları, həyat yoldaşım Ofelya, oğlum Nicat Rövşənlə birlikdə Qarqar çayını keçib, meşəyə girdik. Kətik meşəsinin baş tərəfində böyük bir dəstə var idi. Qaladərəsindən Qədim, Mürşüdün oğlu Rac və kənd camaatının çoxu orada idi. Gen-

dərənin başına toplaşdıq. Birdən gördük, Rövşənin bacısı Xuraman yanında da uşaqları ilə oturub. Rövşən pulemyotunu oğluma verib: “Siz gedin, mən bacımı aparacağam”– deyib Xuramanın yanına getdi. Hər tərəf qar-buz olduğundan, sürüşüb yıxılırdıq. Dağın başına çatanda gördük ki, ermənilər ağacların başında oturacaqlar düzəldiblər. Sən demə, bu hündür yerdən онлар bizi izləyir, oradan başımıza top, alazan atırmışlar. Ayaqlarım getsə də, ürəyim arxada qalmışdı, gözüm Rövşəni axtarırdı. Birdən bərk atışma düşdü, dayanmadan yolumuza davam etdik. Naxçıvanik yolunda əlisilahlı, hərbi paltarda iki erməni bizi görüb təpənin arxasına keçdi. Biz Abdal-Gülablıya tərəf – üzüaşağı endik. Bulaqların üstünə Azərbaycan hərfləri ilə sözlər yazıldığını görəndə sevindik. Bulağın yanı ilə aşağı enəndə həmin iki erməni bizi atəşə tutdu. Ora uçurum idi. Qışqırdım: “Yerə uzanın!” Aramızdakı Məhsəti türkü, ucaboylu Abdullaya güllə dəydi və elə oradaca dünyasını dəyişdi. Biz bir-bir tullandıq, Mərkəz ağır yaralandı, heç gözümün önündən getmir bu mənzərə. Mərkəz Nicata yalvarırdı ki, vur ölüm, erməniyə əsir düşməyim. Mən onu sakitləşdirib, “Qorxma, Ağdama yaxınlaşırıq, kəndə çatanda sənə yardım edəcəklər – dedim. Elə də oldu, Abdal-Gülablıdakı sanatoriyə gəlib çatdıq. Arazın qaynı Tofiq, qardaşı Əli bizi qarşılayıb, “paxodka” maşını ilə kəndə gətirdilər. Kəndin cavanları Mərkəzi də gedib gətirdilər.

**– Bəs Rövşəndən bir xəbər tutmadınız?**

– Qonşumuz Qəndilin qızı Nəzakəti girov aparanda 13 nəfərin saxlanıldığı yerdən keçib. Danışırdı ki, onlara işgəncə verirdilər. Öyrəndk ki, Rövşənin başından tutub sürüyür, qollarını neştərləyirmişlər. Daha bir həmyerlimiz olan Lalə Məmmədova danışırdı ki, ermənilər  bizi girov götürəndə Rövşən qarın içində gizlətdiyi qumbaranı çıxarıb özünü partlatmaq istədi.

Lalə xalanın sözünü düz 32 il bundan öncə Ağdamda Rövşənin bacısı Xuramandan da eşitmişdim.

Yaxşı yadımdadır, Rövşənin bacısı girovluqdan azad olunanda çox kədərli idi. Dedi ki, Rövşəni yanımdan apardılar. Bizi girov götürəndə qardaşım özünü qumbara ilə partlatmaq istəyəndə, balalarımı da götürüb yanında dayandım ki, ölsək də, bir yerdə ölməliyik. Onu qoymadım özünü öldürə. Bacın ölsün, ay qardaş, ümidim vardı onda, nə biləydim ki, son dəfə mənə baxdığın baxışlarını da unutmayacağam ömrümün sonuna kimi…

Ağdamda yoldaşım Allahverdi Bağırova yalvarıb ki, Rövşənin körpə balası var, ona kömək et. Allahverdi deyib ki, onlardan heç biri sağ deyil, hamısını öldürüb silos quyusuna töküblər.

*Ey yolçu, 13 balamızın getdiyi yollardan hələ də xəbərsizik, onların sonsuza qədər unutmayacağımız faciəsindən bir xəbər tut o tərəflərə getsən. Axı hələ də gözümüz yolda, qulağımız səsdədir. Rövşənin gözüyaşlı yoldaşı hələ də o yollardan gözünü yığmayıb...*

*Anası Rəfiqə xala da son nəfəsində: "Hardasan, ay bala?" – demişdi.*

# RÖVŞEN'İ BİR DAHA ASLA GÖREMEYECEĞİM İÇİME DOĞMUŞTU

**Hesenov Rövşen Gaçay oğlu, 1958 yılında Hocalı'da doğdu. 26 Şubat 1992'de Hocalı soykırımı sırasında rehin alınan on üç kişiden biri. Akıbeti ise henüz bilinmiyor.**

Hocalı'ya üç renkli bayrağımızı ilk getiren Rövşen'di. Düşmanı korkutmak için Hocalı`nın girişine astı. Onun girişimiyle Hocalı mezarlığına Kanlı Ocak Anıtı da dikildi ve yıldönümü yapıldı. Anıtın önünde, Hocalı soykırımının kurbanlarından Saadat'ın yürekten söylediği "*Ağla, karanfil ağla* " şiiri hâlâ kulaklarımdadır.

Rövşen'in ataları Batı Azerbaycan'ın Dereleyez bölgesindendi ve kader onları Hocalı'ya getirmişti. Gaçay Öğretmen, köyümüzün seçkin aydınlarından biriydi. Beş kız kardeşin tek erkek kardeşi olan Rövşen, eğitimli, yetenekli ve korkusuzdu.

Petrokimya Enstitüsü'nden mezun oldu ve Hocalı'ya kalifiye bir meslek mensubu olarak döndü. Hocalı İlçe Belediye Ekonomisi Dairesi Başkanı olarak çalıştı. Büyük hayalleri ve umutları vardı.

Ermenilerin kötü niyetleri, Rövşen de dahil olmak üzere birçok gencin hayallerini mahvetti. Eşi Almaz hanımla yaptığımız sohbet çok hüzünlüydü. Kocasıyla ilgili anılarını hatırladıkça gözyaşlarını tutamıyordu; acısı 31 yıl sonra bile hâlâ taze.

Ermenilerin Meşali'de yaşattığı acı Rövşen'i derinden etkiledi. Umutsuzluğa kapıldı; hiçbir şey mümkün görünmüyordu. Hocalı'da yeni inşa edilmiş beş katlı bir binada ev satın almıştık ve oraya taşınmayı hayal etsek de bu sadece bir hayaldi. Her yıl 31 Aralık'ta bir Noel ağacı süslediğimizi asla unut-

mayacağım. Ailece masanın etrafında toplanır, havai fişekler patlatır ve köyümüzde şenliklerin tadını çıkarırdık. Eski yıla veda eder, yeni yılı karşılardık.

1991'de, yeni yılı yeni evimizde karşılayacağımızı söylemişti. Olmadı. 31 Aralık 1991'de Rövşen heyecanla eve geldi ve "Hazırlanın, sizi havaalanına götürüyorum; sizi Ağdam'a uğurluyorum" dedi. Aceleyle eşyalarımızı toplayıp Hocalı havaalanına vardık. Çocuklarını kucakladı, öptü ve kokularını içine çekti. Onlardan ayrılmak istemiyordu. Bizi bir helikoptere bindirip uzun süre bizi izledi. Bu, onunla son görüşmemizdi aslında. O günü asla unutmayacağım. Her yıl o gün sevinç duyardık, aman Tanrım! Ancak o yıl Noel ağacı yoktu, evimizde ışık yoktu. Hocalı zulüm, acı ve karanlık bir kâbusa dönüşmüştü. Her gece top ve dolu yağıyordu. Hocalı dört aydır gazsız ve elektriksizdi, yiyecek tükenmişti.

Ağdam'a vardığımda hüngür hüngür ağladım. Sanki Rövşen'i bir daha asla göremeyecekmişim, yeni dairemize asla taşınamayacakmışım gibi bir his vardı.

**Rövşen'le birlikte gelen ve o kanlı gecenin canlı tanığı olan Famil dayı şöyle anlatıyor:**

Ermeniler Hocalı'ya doğru ilerliyordu. Mahallemizin insanları, eşim Ofeliya, oğlum Nicat Rövşen ve ben Gargar Nehri'ni geçip ormana girdik. Ketik ormanının başında büyük bir grup toplanmıştı. Galaderersine gedim, Mürşüd`ün oğlu Rac ve köylülerin çoğu oradaydı. Gen Vadisi'nin eteklerinde toplandık. Aniden Rövşen'in kız kardeşi Huraman'ı çocuklarıyla otururken gördük. Rövşen, silahını oğluma verip, «Siz gidin, ben kız kardeşimi götüreceğim," dedi ve o da Huraman'a gitti.

Kar ve buz yüzünden defalarca kayıp düştük. Dağın zirvesine ulaştığımızda ağaçların arasında Ermenilerin mevzilenmiş olduklarını gördük. Bizi yüksek gözetleme noktasından izliyor,

top ve roketatıyormuşlar. Bacaklarım donmuş olsa da kalbim Rövşen'le birlikteydi, gözlerim onu arıyordu. Aniden yoğun bir ateş açıldı ve durduğunda yolumuza devam ettik.

Nahçıvanik yolunda, asker üniformalı iki Ermeni bizi gördü ve bir tepenin arkasına saklandı. Abdal-Gulabli yönüne doğru indik. Kaynaklardaki Azerbaycan Türkçesi yazıları görünce rahatladık. Kaynaktan inerken iki Ermeni ateş açtı. Orada bir uçurum vardı. Herkese yere yatması için bağırdım ama aramızdaki uzun boylu Mehseti Türkü Abdullah bir kurşunla vurularak hayatını kaybetti.

Teker teker atladık. Merkez ağır yaralandı. O sahneyi unutamıyorum; Ermeniler tarafından esir alınmak istemediğinden Merkez Nicat`a ölmek için yalvardı. Onu sakinleştirdim ve "Korkma, Ağdam'a yaklaşıyoruz; köye vardığımızda sana yardım edecekler." dedim. Ve öyle de oldu. Abdal-Gulabli'deki sanatoryuma vardık. Araz'ın kayınbiraderi Tofig ve kardeşi Ali bizi karşılayıp köye götürdü. Köyün gençleri Merkez`i de gidip aldılar.

**"Rövşen'den haber alamadınız mı?"**

"Komşumuz Gandil'in kızı Nezaket rehin alındığında, 13 kişinin tutulduğu yerin yanından geçiyormuş. İşkence gördüklerini söyledi. Rövşen'i başından sürükleyip kollarını kestiklerini öğrendik.

**Bir diğer hemşerimiz Memmedova Lale,** Ermeniler bizi rehin aldığında Rövşen'in paltosunun içine sakladığı el bombasını çıkarıp kendini havaya uçurmak istediğini söyledi. Lale'nini sözlerini tam 32 yıl önce Ağdam'da Rövşen'in kız kardeşi Huraman'dan da duymuştum.

Çok iyi hatırlıyorum, Rövşen'in kız kardeşi esaretten kurtulduğunda çok üzülmüştü. "Rövşen'i benden aldılar. Kardeşim, rehin tutulduğumuz sırada kendini havaya uçurmaya ça-

lıştığında çocuklarımı da yanıma aldım ki eğer ölürsek birlikte ölelim diye. Ölmesine izin vermedim kardeşim, umudum vardı ne bilebilirdim ki? Bana son bakışını hayatımın sonuna kadar asla unutamam..."

Ağdam'da eşim Allahverdi Bağırov'a yalvararak, Rövşen'in bir bebeği olduğunu, ona yardım etmesini istedi. Allahverdi ise, onlardan hiçbirinin sağ olmadığını, hepsini öldürüp bir silos kuyusuna attıklarını söyledi.

*Ey yolcu, 13 çocuğumuzun kat ettiği yollardan hâlâ habersiziz. Eğer o yerlere gidersen, asla unutamayacağımız o trajediyi göreceksin. Gözlerimiz hâlâ yollarda, kulaklarımız seslerde. Rövşen'in gözü yaşlı dostu da hâlâ o yollardan gözlerini ayıramadı...*

*Annesi, Rafika teyze de, son nefesinde şöyle dedi: "Neredesin yavrum?"*

# "QARDAŞIMIN BAŞINA DAŞLA VURUB DEDİ Kİ, SƏN DƏ ÇIX..."



**Səyavuş Ramiz oğlu Usubov 1971-ci ildə Xocalıda anadan olmuşdu. Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb. "13-lər"dən biridir. Taleyi məlum deyil...**

İri qaragözlu, yarlı-yaraşıqlı bu oğlanın cəmi 21 yaşı vardı hələ. Hərbi xidmətini Rusiyanın Amur vilayətində başa vurub, elinə-obasına yenicə gəlmişdi. Qarabağ atəşinin alovlandığı qara günlər idi. Əsgərlikdən gələn kimi, Xocalı özünümüdafiə batalyonuna yazılıb, kəndini, elini-obasını qoruyan gənclərə qoşuldu, nə gecəsi vardı, nə gündüzü. Xocalı bu oğullar sayəsində 4 il düşmənə qarşı dirəndi. Hər biri düşmənə gözdağı olan bu oğulların çoxu şəhid oldu, itkin düşdü və ya girovluqda öldürüldü. Gənc yaşlarında şərəfli həyat yolu keçdilər, son nəfəslərinə qədər düşmənə təslim olmadılar.

**O gecənin şahidi Səyavuşun qardaşı Hamlet söyləyir:** Hər tərəfdən mühasirəyə alınmışdıq, amma kəndimizi, evimizi tərk etmək istəmirdik. Xocalını son anda tərk etdik. Atam-anam, qardaşlarım Rizvan, Səyavuş və mən evdən birlikdə çıxdıq. Qapımızı açıq qoyub, həyətimizdəki iti də açıb buraxdıq. İnanırsınız, vəfalı it arxamızca gəldi. Deyəsən, faciəni hiss etmişdi. Çayın kənarında çöməlib, biz meşəyə girənə qədər boğuq səslə zingildədi. Hər dəfə heyvanın o zingiltisini xatırladıqca, varımdan yox oluram. İtlər ermənilərdən daha mərhəmətli, vəfalı və xeyirxah imiş. Biz Kamran və Həsən əmi-

min ailə üzvləri, nənəmgilin ailəsi ilə birlikdə meşəyə girdik. Qarşıda nələr olacağını bilmirdik. Qatı duman, şaxta, boran nəfəsimizi ağzımızda dondururdu. Yol getməyimiz hər addımda çətinləşirdi. Zil qaranlıq gecədə göz-gözü görmürdü. Kətik meşəsinə girdik, sən demə Ağdam istiqamətinə deyil, əks tərəfə getmişdik. Xankəndi yolunun üstünə gəlib çıxdıq. O soyuqda, qarda, boranda gəldiyimiz yolu bir də geri qayıtdıq. Qarqar çayını ayaqyalın keçdiyimizdən, qadınların, uşaqların ayağı donmuşdu, yeriyə bilmirdilər.

Kətik meşəsindəki yüksəkliyə çatanda güclü atışma düşdü. Bizi pulemyotla vururdular. Zil qaranlıq olduğundan bir-birimizi seçə bilmirdik. Xocalının Qaladərəsi kəndindən olan Əliş dayıya güllə dəydi, amma yarası ağır deyildi. Zülmlə qalxdığımız yüksəklikdən dərəyə yuvarlandıq. Biz də onlara atəş açdıq. Oradakı dörd ermənidən birini öldürdük. Xeyli sakitlik yarandı. Camaat bir yerə toplaşdı, başqa bir yolla Ağdama doğru getməyə başladıq. Bu zaman anamın vəziyyəti ağırlaşdı. Camaatdan arxada qaldıq. Anamı atamla bərabər kürəyimizdə daşıdıq. Sən demə, bu dəfə də yanlış getmişdik, bu yol bizi ermənilərin yaşadıqları Dəhraz kəndinə gətirdi.

Hamımız yorulub əldən düşmüşdük. Bir də baxdım ki, anam kürəyimdə dünyasını dəyişib. Yer seçib anamı orada qoyduq. Ayaqlarımız getmirdi, ürəyimiz anamızın yanında qalmışdı. Hər tərəfdə onu görürdüm. Hava işıqlaşana yaxın ermənilərin səsi eşidilirdi. Neçə gündür ölümümüzə doğru gedirikmiş – Dəhraz kəndinə. Meşədən düzənliyə çıxdıq. Yüksəklikdə dayanan hərbi formalı adamlar bizi öz dilimizdə qorxmayın, qorxmayın – deyə çağırırdılar. Şükür silahlı olduğundan, birinci o, qabağa keçdi. Az sonra atışma başladı, bizə qorxma deyən ermənilər imiş. Şükürün ailəsi, uşaqları yanımızda qaldılar. Biz dərədə, ermənilər yüksəklikdə idilər. Yenidən atışma

başladı, Rövşən Xudayarovu vurdular. Mehdi qalxıb onlara tərəf atəş açanda onu da nişan alıb öldürdülər. Öyrəndik ki, onlar əvvəlcədən pusquda dayanıb, bizi mühasirəyə alıbmışlar. Biz silahlı cavanlar dərədən çox çətinliklə yuxarı qalxıb, sıx meşəliyə girdik. Ermənilərlə atışdıq. Dərədəki qadınlar, uşaqlar ağlaşıb, bizi atəş açmağa qoymadılar. Düşünüblər ki, onsuz da mühasirədəyik, çıxış yolu yoxdur. Aşağı düşdük, erməni yaraqlıları bizi mühasirəyə alıb girov götürdülər. Dəhraz kəndindəki uzun, iki hissədən ibarət olan tikiliyə saldılar. Orada uzun masalar var idi. Aradan 20 dəqiqə keçər-keçməz, 4-5 silahlı erməni içəri girdi. Cavanlarımız qapının ağzına toplaşmışdılar. Onlardan 13 nəfərini seçdilər. Qardaşım Səyavuş başını aşağı əymişdi, erməni onun başına daşla vurub, "sən də çıx"– dedi. Azərbaycan dilində o qədər səlis danışırdı ki, erməni olduğuna inanmaq mümkün deyildi. Beləcə, qardaşım Səyavuş olmaqla, apardıqları 13 gəncin heç birinin taleyindən bu günə kimi xəbər yoxdur. Bu 13 gəncdən altısı biz əmioğulların payına düşür.

*Ey yolçu, Kətik meşəsinə yolun düşsə, qarın içində məzarsız yatan ananı və izi-tozu qalmayan 13 oğulu da yadına sal! Haradasınız, insan haqlarından danışan ikiüzlü, beynəlxalq qurumlar?!*

# KARDEŞİMİN BAŞINA TAŞLA VURDU VE "SEN DE ÇIK..." DEDİ.

**Usubov Seyavuş Ramiz oğlu, 1971 yılında Hocalı'da doğdu. 26 Şubat 1992'de rehin alınan on üç kişiden biri. Akıbeti henüz bilinmiyor.**

Gözalıcı siyah gözlere sahip bu yakışıklı genç henüz 21 yaşındaydı. Rusya'nın Amur bölgesinde askerliğini tamamladıktan sonra köyüne yeni dönmüştü. Karabağ ateşinin alevlendiği karanlık günlerdi. Ordudan döner dönmez Hocalı Savunma Taburu'na yazılarak köylerini gece gündüz koruyan gençlere katıldı.

Hocalı, bu evlatlar sayesinde dört yıl boyunca düşmana karşı direndi. Her biri düşman için büyük bir tehdit oluşturan bu gençlerin çoğu şehit oldu, kayboldu veya rehin alınma sırasında öldürüldü. Yine de gençliklerinde onurlu bir hayat yaşadılar ve son nefeslerine kadar düşmana teslim olmadılar.

**O geceye tanık olan Seyavuş'un kardeşi Hamlet şunları anlatıyor:**

"Her taraftan kuşatılmıştık ama köyümüzü, evimizi terk etmek istemiyorduk. Hocalı'yı son anda terk ettik. Annem, babam, kardeşlerim Rizvan, Seyavuş ve ben birlikte evden çıktık. Kapımızı açık bırakıp köpeği avluya bıraktık. İnanın ya da inanmayın, sadık köpek bile arkamızdan geldi. Trajediyi hissetmiş gibiydi. Ormana girerken nehrin kenarına sindi ve usulca havladı.

O köpeğin havlamasını her hatırladığımda kahroluyorum. Köpekler, Ermenilerden daha merhametli, sadık ve nazikti. Biz, amcam Kamran ve Hesen'in aile bireyleri ve büyükannemin ailesi ile birlikte, bizi neyin beklediğinden habersiz ormana girdik.

Yoğun sis, kırağı ve tipi nefesimizi ağzımızda donduruyordu. Her adım daha da zorlaşıyordu. Zifiri karanlık gece görüşümüzü imkânsız kılıyordu. Ketik ormanına girdik ama Ağdam yönüne değil yanlış yöne girmişiz. Hankendi yoluna ulaştık ve sonra geri döndük. O soğukta, karda ve fırtınada geldiğimiz yoldan geri dönmek zorunda kaldık. Gargar Nehri'ni yalınayak geçtiğimiz için kadınların ve çocukların ayakları donmuştu ve yürüyemez hale gelmişti.

Ketik Ormanı'ndaki yüksekliğe ulaştığımızda şiddetli bir çatışma başladı. Bize makineli tüfeklerle ateş ediyorlardı. Zifiri karanlık olduğundan birbirimizi seçemiyorduk. Hocalı'nın Galadara köyünden olan Aliş dayı`ya kurşun isabet etti, fakat yarası ağır değildi. Büyük zorluklarla çıktığımız yükseklikten dereye yuvarlandık. Biz de onlara ateş açtık. Oradaki dört Ermeniden birini öldürdük. Bir süreliğine sakinlik sağlandı. İnsanlar bir araya toplandı ve başka bir yoldan Ağdam'a doğru ilerlemeye başladık. Bu sırada annemin durumu kötüleşti. Kalabalığın gerisinde kaldık. Annemi babamla birlikte sırtımızda taşıdık. Meğerse, bu yine de yanlış yoldan gitmişiz; bu yol bizi Ermenilerin yaşadığı Dehraz köyüne götürdü.

Hepimiz yorgun ve bitkin düşmüştük. Bir baktım ki, annem sırtımda hayatını kaybetmiş. Yer seçip annemizi oraya bıraktık. Ayaklarımız gitmiyordu, kalbimiz annemizle birlikteydi. Her tarafta onu görüyordum. Hava aydınlanmaya yakın Ermenilerin sesleri duyuluyordu. Kaç gündür ölümümüze doğru gidiyormuşuz – Dehraz köyüne. Ormandan düzlüğe çıktık. Yükseklikte duran askerî üniformalı kişiler bize kendi dilimizde "Korkmayın, korkmayın" diye sesleniyorlardı. Şükür silahlı olduğundan ilk o, öne geçti. Az sonra çatışma başladı; bize korkma diyenler Ermenilermiş. Şükür'ün ailesi ve çocukları yanımızda kaldılar. Biz dereye düşmüş, Ermeniler yüksekliğe

yerleşmişti. Yeniden çatışma başladı, Rövşen Hudayarov vuruldu. Mehdi onlara doğru ateş açınca, onu da nişan alıp öldürdüler. Öğrendik ki, onlar önceden pusuda bekleyip bizi kuşatmışlar. Biz silahlı gençler dereyi çok güçlükle tırmanıp sık ormana girdik. Ermenilerle çatıştık. Dereye düşmüş kadınlar ve çocuklar ağlayarak, bizim ateş açmamıza izin vermediler. Zaten kuşatma altındayız, çıkış yolu yok diye düşünmüşler. Aşağı indik; Ermeni milisler bizi kuşatıp rehin aldılar. Dehraz köyündeki uzun, iki bölümden oluşan binaya götürdüler. Orada uzun masalar vardı. Aradan 20 dakika geçmeden 4–5 silahlı Ermeni içeri girdi. Gençlerimiz kapının önünde toplandı. Onlardan 13 kişiyi seçtiler. Kardeşim Seyavuş başını eğmişti, Ermeni başına taşla vurup, "Sen de çık" dedi. Azerbaycan dilinde o kadar akıcı konuşuyordu ki, Ermeni olduğuna inanmak mümkün değildi. Böylece, kardeşim Seyavuş olmak üzere götürülen 13 gencin kaderinden bu güne kadar haber alınamamıştır. Bu 13 gençten altısı bizim amcaoğullarımızın payına düşmektedir.

*Ey yolcu, Ketik Ormanı'ndan geçersen, karlar altında mezarsız yatan anneyi ve izi bile silinmiş 13 evladı unutma! Nerdesiniz, insan haklarını dilinden düşürmeyen ikiyüzlü uluslararası kurumlar?!"*

## “13-lər”dən BİRİ DƏ QARDAŞIM VÜQARDIR…



**Vüqar Hilal oğlu Hüseynov 1971-ci ildə Xocalıda anadan olmuşdu. Xocalı soyqırımı zamanı – 1992-ci il fevralın 26-da girov götürülüb. “13-lər”dən biridir. Taleyi məlum deyil…**

Vüqar çoxuşaqlı ailədə dünyaya gəlmişdi. Uşaqlığı Xocalının dağında-dərəsində, meşəsində keçmişdi. Kətik meşəsindəki Gendərədə, laləlikdə uşaqlarla yorulub əldən düşənə qədər qaçdı-qovdu oynayıb böyümüşdü. Müharibə, qan-qada, dərd, faciə bilməzdi uşaq ürəyi, körpə düşüncəsi. Gözünü açandan gözəllik, laləlikdə qaçıb-oynamaq görmüşdü. Uşaqlığı bitəndə isə məktəbə getmiş, oranı da bitirdikdən sonra əsgərliyə yollanmışdı.

Öz vətənində başlamışdı hərbi xidmətə, əvvəlcə Gəncə şəhərində, oradan da Ağdamdakı Uzundərəyə ezam edilmişdi. Xocalı onda ağır günlərini yaşayırdı. Vüqar xidmətini başa vurar-vurmaz Xocalıya, doğulub-böyüdüyü yurdunu qorumağa döndü. Xocalı özünümüdafiə batalyonunun əsgəri olan qardaşı Ələsgərlə birlikdə Həsənabad tərəfdə Ağdam–Xankəndi dəmir yolunun yanında Horov kəndi yaxınlığında postda dayanırdı. Bəzən də yolunu Kətik meşəsindən salıb, uşaqlığına, o qayğısız illərinə boylanardı. Gələcək faciəsindən xəbərsiz-ətərsiz idi. Bilməzdi ki, ömrünün gənclik çağlarında sevdiyi bu yerdə dizədək qara batan doğmaları, həmyerliləri qanlarına qəltan olacaq.

**Vüqarın qardaşı Ələsgər İbrahimov nələri xatırlayır:**

– Bizi hər tərəfdən mühasirəyə almışdılar, halqa getdikcə daralırdı. Kənd camaatı ilə birlikdə o gecə Qarqar çayının kənarına gəldik. Bacım Zərəfşan, Vüqar və mən çayı keçib Kətik meşəsinə girdik. Meşə ilə Horov kəndi arasında atışma düşdü, sonra bir qədər sakitlik yarandı. Dəhraz kəndi boyu adamlar yol gəlirdilər. Bizim dəstə Malik İmaninin güllələndiyi yerdə idi. Ayrı-ayrı dəstələrdəki adamlar öldüyündən, itkin düşdüyündən, qalanlar bizə qoşuldular. Dəstəyə, Allah rəhmət eləsin, Şahmar kişi bələdçilik edirdi. O, çoban olduğu üçün meşənin hər cığırına bələd idi. Deyirdi ki, Qaraqayanın altında tək armud ağacı var, ora çatandan sonra Ağdama keçəcəyik. Meşənin sol tərəfində Dəhraz kəndi, sağ tərəfində isə Qaraqaya idi. Biz Dəhraz meşəsində düzənliyə çıxdıq, amma armud ağacının yanından keçməli idik.

Deyəsən, aclıq, soyuq Şahmar kişini yormuşdu, yolu tapa bilmirdi, şumluğa çıxdıq. Burada ermənlər tərəvəzmi, taxılmı becərmişdilər, şumluğun arasında dərin bir yarğan vardı. Sağ və sol tərəflərdə isə kəndlər yerləşirdi. Birdən şumluqdan it çıxıb hürməyə başladı, həmin dəqiqə o tərəfdəki postların birindən bizi Azərbaycan dilində çağırmağa başladılar: “Xocalıdansınız? Azərbaycanlısınız? Qorxmayın, gəlin”. Dəstəmizdəki rəhmətlik Kamil Məmmədov cavab verdi ki, “Biz azərbaycanlıyıq, Xocalıdanıq”. Kişinin sözü bitməmiş, bizi atəşə tutdular. Daşbulaqdan olan Yaşa ilə yarğanın o biri tərəfi ilə atışa-atışa xeyli aralana bildik. Rəhmətlik Əşrəf dayının qızı da qardaşı İsanın uşağını kürəyinə şəlləmişdi. Onu da Ağdama tərəf yönəltdik. Mən 300 metr aralıda hərbi formada olan ermənilərin qardaşımı, bacımı, bir sözlə, dəstədəkilərin hamısını girov götürdüklərini gördüm. Gözlərim dolmuşdu, səsim, ünüm onlara yetmrdi. Bizimkilər aşağıda, ermənilər isə yüksəklikdə idilər. Çarəsizlikdən təslim olmuşdular. Onları Dəh-

raz kəndindəki fermaya aparıbmışlar. Ermənilər 13 gənci seçib aparmışdılar ki, onlardan biri də qardaşım Vüqar idi. Onların taleyindən bu günə kimi xəbər tuta bilmədik. Atam-anam qardaşımı gözləyə-gözləyə dünyadan köçdülər. Bacım deyirdi ki, 13 nəfəri çölə çıxarandan sonra güllə səsi eşidildi.

*Ey yolçu, al firçanı əlinə, çarəsiz, gözləri dolmuş, qardaşı əsir düşən bacının çəkdiyi ah-nalənin rəsmini çək. Bacararsanmı? Amma rəngini bom-boz et, axı müharibə boz rəngdədir…*

# ON ÜÇ KİŞİDEN BİRİ KARDEŞİM VÜGAR'DI

**Hüseynov Vügar Hilal oğlu, 1971 yılında Hocalı'da doğdu. 1992'deki Hocalı soykırımı sırasında rehin alınan on üç kişiden biriydi. Akıbeti ise bilinmemekte.**

Vügar, kalabalık bir ailede doğdu; çocukluğunu Hocalı'nın dağlarında, vadilerinde ve ormanlarında geçirdi. Gen Vadisi'nde ve Ketik ormanının lale tarlalarında diğer çocuklarla yorgunluktan bitkin düşene kadar oynayarak büyüdü. Savaş, kan dökülmesi, acı ve trajedi, genç yüreğine ve masum düşüncelerine yabancıydı. Gözlerini açtığı andan itibaren lale tarlalarında koşup oynamayı, güzelliği gördü.

Çocukluğu sona erdiğinde okula gitti ve mezun olduktan sonra askerlik hizmetine başladı. İlk olarak memleketi Gence şehrinde görev yaptıktan sonra Ağdam›ın Uzundere kasabasına gönderildi. Hocalı zor zamanlar geçiriyordu. Vügar askerlik görevini tamamlar tamamlamaz vatanını korumak için Hocalı'ya döndü. Hocalı Öz Savunma Taburu'nda asker olan kardeşi Elesker ile birlikte, Ağdam-Hankendi demiryolunun Hesenabad tarafındaki Horov köyü yakınlarındaki bir mevzide nöbet tuttu. Ara sıra Ketik ormanından geçerken başına gelecek trajediden habersiz, kaygısız bir şekilde çocukluğunu düşünürdü. Gençliğinde sevdiği yere düşecek karın bir gün halkının kanıyla lekeleneceğini bilmiyordu.

**Vügar'ın kardeşi Elesker İbrahimov şöyle anlatıyor:**

"Bizi her taraftan kuşattılar; çember daralıyordu. O gece, köylülerle birlikte Gargar Nehri kıyısına ulaştık. Kız kardeşim Zerefşan, Vügar ve ben nehri geçip Ketik ormanına girdik. Orman ile Horov köyü arasında çatışma çıktı, ardından kısa bir süre sessizlik oldu. İnsanlar Dehraz köy yolunda ilerliyordu. Grubumuz Malik İmani'nin vurulduğu yerdeydi. Farklı gruplardan bazıları öldürüldü veya kayboldu, geri kalanlar bize katıldı.

Allah onlara Rahmet eylesin. Şahmar bize rehberlik ediyordu. Çoban olduğu için ormanın her köşesini ve her yerini biliyordu.

Garagaya'nın altında tek bir armut ağacı olduğunu söyledi ve oraya ulaştıktan sonra Ağdam'a doğru yola çıkacaktık. Ormanın solunda Dehraz köyü, sağında ise Garagaya vardı. Dehraz ormanındaki ovaya çıktık ama armut ağacının yanından geçmek zorunda kaldık. Açlık ve soğuk Şahmar'ı bitkin düşürmüştü; yolu bulamıyordu, bu yüzden sürülmüş tarlaları takip ettik. Ermeniler burada sebze mi tahıl mı ne yetiştiriyorlardı.

Sürülmüş tarlaların arasında derin bir vadi vardı, solunda ve sağında köyler vardı. Aniden bir köpek ortaya çıktı ve havlamaya başladı. O anda, diğer taraftaki mevzinin birinden birisi Azerbaycan Türkçesiyle bize seslendi: "Hocalı'dan mısınız? Azerbaycanlı mısınız? Gelin, korkmayın." Grubumuzdaki merhum Kamil Memmedov, Azerbaycanlı olduğumuzu, Hocalı'dan geldiğimizi söyledi. Adam sözünü bitirmeden bize ateş açtılar.

Daşbulaglı Yaşa ile vadinin diğer tarafına doğru biraz uzaklaşmayı başardık. Merhum Aşraf dayının kızı da kardeşi İsa'nın çocuğunu sırtında taşıyordu; onu Ağdam'a yönlendirdik. Yaklaşık 300 metre ötede askeri üniformalı Ermenilerin erkek kardeşimi, kız kardeşimi ve grubumuzdaki tüm insanları rehin aldığını gördüm.

Gözlerim dolmuştu, ellerim güçsüzdü; hiçbir şey yapamadık. Halkımız aşağıdaydı, Ermeniler ise tepelerdeydi. Halkımız çaresizlikten teslim olmuştu.

Onları Dehraz köyündeki bir çiftliğe götürdüler. Ermeniler aralarından on üç genç seçip gittiler, bunlardan biri de kardeşim Vügar'dı. Bugüne kadar onların durumunu öğrenemedik. Annemle babam onun haberini beklerken vefat ettiler. Kız kardeşim, 13 kişi götürüldükten sonra silah sesi duyduğunu söyledi.

*Ey yolcu, eline bir fırça al ve kız kardeşinin iç çekişlerini, umutsuzlukla dolu gözlerini, esir alınan erkek kardeşini resmetmeye çalış. Yapabilir misin? Ama gri yap, çünkü savaş gridir...*

# “MACAL TAPMADI Kİ, ÖZÜNÜ GÜLLƏ İLƏ VURSUN…”



**Azad Pirqulu oğlu Cabbarov 1967-ci ildə Laçın rayonunun Arduşlu kəndində anadan olmuşdu. 1992-ci il fevralın 26-da girov götürülüb. “13-lər”dən biridir. Taleyi məlum deyil…**

Azad bir yaz günündə Laçının axarlı-baxarlı Arduşlu kəndində dünyaya gəlmişdi. Valideynlərinin arzusu onun azad və xoşbəxt yaşaması idi. Adına yaraşan xarakteri vardı. Deyilənə görə, sağlam xarakterli, dirənişli uşaqmış, istəmədiyini ona etdirmək mümkün deyilmiş. Azad həm də çox yaraşıqlı, qızların xəyalı imiş. Onun gözü isə qonşu qızını tutmuşdu. Orta məktəbi əla qiymətlərlə bitirib, Bakıda Politexnik Texnikumuna daxil olur. Buranı fərqlənmə diplomu ilə bitirib kəndlərinə dönür, çünki sevdiyi orada idi. Qonşu qız da orta məktəbi fərqlənmə ilə başa vurmuşdu. Atası polis kapitanı olduğu üçün qızı da polis olmağın xəyallarını qurubmuş. Azad isə ona bu fürsəti vermir, qızı qaçırıb, toy edir. Oğlu dünyaya gəlir, gənclər ata-ana adının xoşbəxtliyini yaşayırdılar…

Bu, həmin vaxtlar idi ki, Xocalı gün-gündən genişlənir, abadlaşırdı. Azadın bacısı da ailəsi ilə iki il bundan əvvəl Xocalıya köçmüşdü. Qardaşına məsləhət görmüşdü ki, sən də ailənlə köç gəl Xocalıya. Azad da bir yay günündə – 1991-ci il avqustun 1-də ailəsini götürüb Xocalıya köçmüşdü. Gəldiyi gündən də Xocalı özünümüdafiə batalyonuna yazılıb, kəndi qoruyurdu. “Qarabağın ağır günündə ən şərəfli iş budur”– demişdi. İndi

Azadın ömür-gün yoldaşı Fəridə ilə söhbət edirəm.

**– Azadla son görüşünü necə xatırlayırsan?**

– Meşəli faciəsi, bilirsiniz ki, 1991-ci il dekabrın 23-də baş vermişdi. Azad da ora köməyə getmişdi. Əmim –Ənvər Bahadur oğlu Qasımovu ermənilər işgəncə ilə qətlə yetirmişdilər. Azad əmimin nəşini, məni və iki uşağımızı Laçına apardı. Onda uşaqlar körpə idilər. Biz orada qaldıq, sonuncu görüşümüz də onda oldu. Xocalıda ata tərəfdən qohumlarımız çox idi. Azad meşədə Bəyvələd dayı ilə rastlaşıb. Bəyvələd dayı danışırdı ki, Azada dedim, gəl bizimlə gedək, razı olmadı. Dedi ki, siz gedin, qadınları, uşaqları çıxaracağam. Dəhraz kəndindəki cavanlar qadınlara, uşaqlara görə girov əsir düşüblər. Yoxsa əllərində silah olan şir kimi oğullar niyə əsir düşsünlər ki?

Azadın bacısının qayнatasını, qaynanasını da girov götürmüşdülər. Zəhra xala Azada çox yalvarıb ki, hərbi formanı dəyiş, səni buraxsınlar. O, razı olmayıb ki, mən onların qarşısında alçalmaram. Beləcə, 13 gəncdən biri də ömür-gün yoldaşım idi. Adı Azad idi, əsirlikdən azad ola bilmədi. Özünə güllə sıxmağa da macal tapmayıb. Azadın övladlarını onun adına layiq böyütdüm – Nicatla Fuad Vətən müharibəsində əllərindən gələni etdilər. Ali təhsil alıblar. Mən özüm kiçik tibb bacısı kimi, BQXK-da DNT testinin götürülməsində iştirak edirəm, itkin ailəsi kimi, bu həssas təbəqədən olan ailələrə psixoloji dəstək göstərirəm. Azadın gələcəyinə həmişə inanmışam. O, bir gün mütləq qayıdacaq!

*Ey yolçu, bilirsənmi, hansı acılar qoyub gəlmişik geridə?! "13-lər"dən biri də Fəridənin yoldaşıdır, 31 ildir gözü yollarda yarını axtarır. Onu görsən de ki, gözü yollarda qalanın var…*

## KENDİNİ VURMAYA FIRSAT BULAMADI

**Azad Pirgulu oğlu Cabbarov, 1967 yılında Laçin bölgesindeki Arduşlu köyünde doğdu. 1992 yılında Hocalı katliamı sırasında rehin alınan 13 kişiden biridir. Akıbeti hala bilinmemekte.**

Azad, Laçin'in Arduşlu köyünde bir bahar günü doğdu. Akarsuların ve temiz kaynakların bulunduğu bir köy. Ailesi onun özgür ve mutlu bir hayat sürmesini istiyordu.

Adına yakışır bir karakteri vardı: iradeli, sağlıklı, dirençli ve istemediği hiçbir şeye boyun eğmeyen bir karakter. Aynı zamanda yakışıklıydı, birçok kızın hayaliydi, ama Azad'ın gözü komşusunun kızındaydı.

Liseyi mükemmel notlarla bitirdi ve Bakü'deki Politeknik Enstitüsü'ne girdi. Onur derecesiyle mezun olduktan sonra, sevgilisinin yaşadığı köyüne döndü. Komşusunun kızı da liseyi onur derecesiyle bitirmişti. Babası bir polis yüzbaşıydı ve o da polis memuru olmayı hayal ediyordu. Ancak Azad ona bu şansı vermedi. Komşusunun kızını kaçırdı ve onunla evlendi.

Bir oğulları oldu ve genç çift anne baba olmanın mutluluğunu tattı. Bu, Hocalı'nın her geçen gün büyüdüğü ve geliştiği bir dönemdeydi. Azad'ın kız kardeşi iki yıl önce ailesiyle birlikte Hocalı'ya taşınmış ve kardeşine de aynısını yapmasını tavsiye etmişti. Azad kız kardeşinin tavsiyesine uydu ve 1 Ağustos 1991 yaz günü ailesiyle birlikte Hocalı'ya taşındı. Geldiği günden itibaren Hocalı Öz Savunma Taburu'na katıldı ve köyün savunmasını üstlendi. "Bu, Karabağ'ın zor günlerinde en onurlu görevdir" derdi.

**Azad'ın hayat arkadaşı Feride şöyle anlatıyor:**

**"Azad'la son buluşmayı nasıl hatırlıyorsun**?

Biliyorsunuz, Meşeli faciası 23 Aralık 1991'de yaşandı. Azad da yardım etmek için oraya gitmişti. Amcam Kasımov Enver Bahadur oğlu orada Ermeniler tarafından işkenceyle öldürüldü. Azad beni ve iki çocuğumuzu amcamı görmemiz için Laçin'e götürdü. Çocuklar o zamanlar bebekti. Orada kaldık ve bu son görüşmemizdi.

Babamın tarafındaki birçok akrabamız Hocalı'da yaşıyordu. Azad, Beyveled dayı ile ormanda buluştu.

Beyveled dayı bana Azad'dan onlarla gelmesini istediğini ama Azad'ın "Sen git, ben kadınları ve çocukları çıkaracağım" diyerek reddettiğini söyledi. Dehraz köyündeki gençler de kadınlar ve çocuklar için rehin alındı. Yoksa neden silahlı aslan gibi oğullar rehin alınsın ki? Azad'ın kız kardeşinin kayınpederini ve kayınvalidesini de rehin almışlardı.

Zehra Teyze, Azad'a askeri üniformasını çıkarıp kendini kurtarması için defalarca yalvardı. Azad, onların önünde rezil olmayacağını söyleyerek reddetti. On üç genç adamdan biriešimdi. Adı Azad ('Özgür') olmasına rağmen, esaretten kurtulamadı ve kendini vurma fırsatı da bulamadı.

Azad'ın çocuklarını isimlerine layık olacak şekilde yetiştirdim. Nicat ve Fuad, Vatan Savaşı sırasında ellerinden gelenin en iyisini yaptılar. Yüksek öğrenim gördüler. Yardımcı hemşire olarak, Kızılhaç'ın test programına katılıyorum. Kayıp bir kişinin ailesi olarak bu savunmasız gruptaki diğer ailelere psikolojik ve duygusal destek sağlıyorum.

Azad`ın  geleceğine hep inandım. O bir gün mutlaka gelecek!

*Ey yolcu, geride bıraktığımız acıyı biliyor musun? On üç gençten biri, 31 yıldır yollarda geleceğini arayan Feride'nin eşi. Onu görürsen, gözlerinin hala yollarda olduğunu söyle…"*

## "BİR GÖZ QIRPIMINDA ARAMIZDAN 13 GƏNCİ SEÇİB APARDILAR…"



**Elşən Həsən oğlu Bağırov 1965-ci ildə Xocalıda anadan olmuşdu. 1992-ci il fevralın 26-da girov götürülüb. "13-lər"dən biridir. Taleyi məlum deyil…**

Bu uşaq dünyaya gələndə "Bir qalanın sirri" filmi ekranlara yenicə çıxmışdı. Elşən obrazını yaradan gənc aktyorun qəhrəmanlığı hamının sevimlisinə çevrilmişdi. Bu körpəyə də filmdəki qəhrəman oğlanın adını qoydular – Elşən.

Sən demə, hər kəs adına layiq tale yaşayırmış. Elşən də Xocalının qəhrəmanı oldu. Filmdə xeyir şərə qalib gəlsə də, Xocalı soyqırımında qəhrəmanlıq səlnaməsi yaradan bu oğlanın taleyində şər xeyrə qalib gəldi, nə yazıq ki…

Elşən Xocalı Rayon Polis Şöbəsinin əməkdaşı idi. Qarabağ hadisəsi başlayanda onun da gecəsi-gündüzü yox idi, 1992-ci ilin qanlı fevral gecəsinə qədər yurdunu qorudu. Həmin gecə hər yerdən ümidlər üzülmüşdü. Deyəsən, Tanrı da üz döndərmişdi xocalılılardan.

**O dəhşətli gecənin şahidi Xuraman Həsənova xatırlayır:**

– Saat 10-11 radələri olardı. Güllələr dolu kimi yağır, topların səsindən qulaq tutulurdu. Atışma getdikcə şiddətlənirdi. Yoldaşım postdan gəlib bizi qonşumuz Eldarın zirzəmisinə apardı. Orada xeyli qaldıq, atışma hər dəqiqə böyüyürdü, güclənirdi. Gördük, burada qalmaq mümkün deyil, 50-yə yaxın qoca, qadın, uşaq güllə yağışı altında dəmiryol körpüsünə gəl-

dik. Dəmir yolunun üstündə postda dayanan kişiləri köməyə çağırdıq. Yoldaşım mənə dedi ki, uşaqları götür, get çayın qırağına, məni gözlə, gələcəyəm. Özü yoldaşlarına köməyə getdi. Həyat yoldaşım postda olan döyüş yoldaşları – Cavan Əliyev, Kamil Məmmədov, Fəqan Əhmədov və Füzuli Rüstəmov ilə fermaya doluşan ermənilərlə döyüşüb, camaatın meşəyə keçməsinə imkan yaratmışdılar. Mən çayın kənarında xeyli oturub yoldaşımı gözlədim, o, gəlmədi. Düşündüm ki, yəqin ermənilər öldürüblər. Uşaqlarımı da götürüb çayı keçdim. Buz bağlamış sıldırımlarla getmək çox çətin idi. Sürüşüb yıxılır, yenidən qalxıb yeriyirdik. Kiçik oğlumu kürəyimə şəlləmişdim. Böyük oğlum Elməddin özü gedə bilirdi. Zil qaranlıq gecə olduğundan, göz-gözü görmürdü. Kimsə oğlumun qolundan tutub, kömək etdi. Arxaya dönüb baxanda gördüm ki, evlərimiz alışıb yanır. Sürünə-sürünə, budaqlardan tuta-tuta birtəhər dağın başına dırmandıq. Arxadan bir səs eşitdim. Kimsə deyirdi ki, qabaqda gedən bacındır. Gördüm, qardaşım Rövşəndir, tez boynundan şərfini açıb balaca oğlumun boynuna doladı. Dedi ki, camaata kömək edirik, yolu tapıb Ağdama çatdıraq. Söhbətimiz 5 dəqiqə çəkmədi. Hava işıqlaşmışdı. Qarşımızda qalxdığımız dağdan da hündürləri, həmçinin dərələr var idi. Çox dəhşətli gecə idi, sanki Tanrının qəzəbi tutmuşdu bizə. Məşdi müəllimin oğlanları Şahin, Cavanşir ağacdan düzəltdikləri xərəkdə yaşlı analarını aparırdılar. Lalə xala ilə mən 2 uşağımla arxada idik. Rövşən qabaqda gedir, yol axtarıb tapmaq istəyirdi ki, camaatı Ağdama çatdırsın. Qadınlar, uşaqlar soyuqdan donmasın deyə, qardaşım ocaq qaladı. Biz isinən kimi ocağı söndürüb yolumuza davam edirdik. Bir də gördük, çoxlu qadın-uşaq qaça-qaça bizə tərəf gəlir. Dedilər ki, Qaraqaya tərəfdə ermənilər camaatı pulemyotun qabağına verib qırır. Rövşən döyüşçü yoldaşları və bələdçi ilə qabağa düşdü ki, camaatı

çıxarmaq üçün yol axtarsın. Mən həmin gün daha onu görə bilmədim. Yüzlərlə insan dağın döşü ilə dar bir cığırla gedirdi. Taqətim qalmamışdı. Uşaqlarım donurdu, hamı çıxıb getmişdi. İki uşağımla mən qalmışdım. Bir ağacın dibinə çəkilib, ocaq yandırmaq istəsəm də, qalaya bilmədim. Bildim ki, bir az da qalsaq, uşaqlar donacaqlar. Paltomu çıxardım, beşyaşlı oğlumu üstünə qoyub, kəmərlə bağlayıb sürüməyə başladım. Sürünə-sürünə cığıra çatdıq. Zülmət gecədə getməyə başladıq. Qarşıdan bir hənirti eşitdim, bizim camaat idi. Ocaq qalayıb isinirdilər. Qardaşım Rövşən, əmimoğlu Elşən bizi qarşılayıb, ocağın qırağına gətirdilər. Bir az isinəndən sonra ocağı söndürdülər ki, ermənilər yerimizi bilməsinlər.

…Fevralın 27-si səhər hava işıqlaşan kimi yenidən yolumuza davam etdik. Yolda ona, "ay Rövşən, elə bildim, sən artıq Ağdamdasan"– dedim. O da "Bir belə camaatı meşənin ortasında qoyub, necə gedə bilərdim? Biz onlardan ötrü buradayıq. Allah qoysa, sağ-salamat Gülablıya çatarıq"– deyib qabağa getdi.

Meşədən çıxan kimi uzaqdan bir kənd göründü. Həmin kənd tərəfdən səs gəldi: "Bura Ağdamın kəndidir, gəlin". Hamımız sevinib kəndin içinə tərəf qaçdıq. Bizim döyüşçülərə heç imkan vermədilər ki, vuruşsunlar. Hər tərəfdən atəşə tutdular. Ermənilər bizi tələyə salmışdılar. Qocalar, qadınlar, uşaqlar arasında ölənlər, yaralananlar oldu. Kəndin qırağı sıldırım dağ idi. Camaat dağın döşünə çəkildi, silahlı oğullarımız son güllələrinə qədər döyüşdülər. Sonda əli hər yerdən üzülmüş camaat bir neçə yerdə ağ bayraq qaldırıb, təslim olmaq məcburiyyətində qaldı.

…Üç yüzə yaxın insanı "ferma" deyilən yerə yığmışdılar. Bura iki hissədən ibarət olan uzun tikili idi. Əvvəlcə hamının üst-başını yoxlayıb pullarını, qızıllarını aldılar. Camaatı iki-iki,

üç-üç çölə çıxarıb, sonra qaytarıb gətirirdilər. Qaranlıq düşəndə bir neçə erməni yaraqlısı içəri girib cavan oğlanları – qardaşım Rövşən Qaçay oğlu Həsənovu, əmim oğlanları – Elşən Həsən oğlu Bağırovu, Zakir Kamran oğlu Usubovu, Əlyar Kamran oğlu Usubovu, Elşad Kamran oğlu Usubovu, Səyavuş Ramiz oğlu Usubovu, Ülfət İman oğlu Əliyevi, Vüqar Hilal oğlu İbrahimovu, Şahin Talış oğlu Məmişovu, Tofiq Aslan oğlu Zeynalovu, Ələddin Bəhlul oğlu Paşayevi, Usubəli Süleyman oğlu Qarayevi, Azad Pirqulu oğlu Cabbarovu çölə çıxarıb apardılar. Çöldən əvvəlcə avtomat səsi, sonra "KamAZ" maşınının uğultusu gəldi. Səhərə qədər ah-nalə göylərə qalxdı. Ağlaşma səsindən qulaq tutulurdu. Bu cavanların çarəsiz ataları, gözüyaşlı anaları, bacı-qardaşları, bağrı qana dönmüş körpə balalarının səsi-fəryadı heç yerə çatmadı.

Səhərisi bizim bir hissəmizi girovluqdan buraxdılar, yarı dəstəmiz isə orada qaldı. Heç sevinmədim, gözüyaşlı balalarımla girovluqdan azad olunsam da, ruhum orada – canlarımın yanında qaldı…

…Elşən isə bilmədi ki, yaxasında önlüyü ilə evdən çıxan anası Zəhra xalanı, balalarından əliuzanıqlı qalan bacısı Nailəni də ermənilər qətlə yetiriblər.

Bu günə kimi taleyi məlum olmayan qəhrəman oğullardan biri də Elşəndir. O, soyuq, qanlı gecənin qaranlığında əbədi yox oldu. Düşmən onların başına nə gətirdi, necə öldürdü, düşünməsi, ağla gəlməsi belə tükürpədicidir. Düzdür, qisas qiyamətə qalmadı, ancaq nakam taleli gəncləri düşündükcə, insan oğlunun damarında qanı donur və "Biz düşməndən hələ qisas almamışıq"– deyə düşünür. Nə qədər qisas alsaq da, həmin məşum gecədə çarəsiz ata-anaların fəryadının əvəzini heç nə ödəyə bilməyəcək...

# GÖZ AÇIP KAPAYANA KADAR ARAMIZDAN ON ÜÇ GENCİ SEÇİP GÖTÜRDÜLER

**Bagirov Elşen Hesen oğlu, 1965 yılında Hocalı'da doğdu. 1992'deki Hocalı soykırımı sırasında rehin alınan on üç kişiden biri. Akıbeti bilinmemekte.**

Bu çocuk doğduğunda, "*Bir Qalanın Sirri*" (Bir Kalenin Sırrı) filmi yeni vizyona girmişti. Elşen'ı canlandıran genç oyuncunun kahramanlığı herkesin gözdesi olmuştu ve bebeğe o kahraman çocuğun adı verilmişti. Herkesin bu isme layık bir hayat yaşadığını söyleyebiliriz. Elşen de Hocalı'nın bir kahramanı oldu. Filmde iyilik kötülüğe galip gelse de Hocalı faciasında kahramanlık öyküsü yazan bu çocuğun kaderinde kötülüğün iyiliğe galip gelmesi trajikti

Elşen, Hocalı İlçe Emniyet Müdürlüğü'nde çalışıyordu. Karabağ olayları başladığında onun için gece ve gündüz birbirine karışmıştı; Şubat 1992'nin kanlı gecesine kadar vatanını savundu. O gece, umutlar her yerde paramparça olmuştu. Sanki Tanrı bile Hocalı halkına sırtını dönmüştü.

**O korkunç geceye tanık olan Huraman Hesenova şöyle anlatıyor:**

"Saat on, on bir civarıydı. Kurşunlar dolu gibi yağıyordu ve topların kükremesi sağır ediciydi. Ateş giderek yoğunlaşıyordu. Eşim görev yerinden geldi ve bizi komşumuz Eldar'ın bodrumuna götürdü. Orada uzun süre kaldık; ateş her dakika arttı. Orada daha fazla kalamayacağımızı anladık. Yaklaşık elli yaşlı, kadın ve çocuk kurşun yağmuru altında demiryolu köprüsüne doğru yürüdü.

Demiryolu karakolunda duran adamları yardıma çağırdık. Eşim, "Çocukları alın ve nehir kıyısında beni bekleyin. Gele-

ceğim," dedi. Arkadaşlarına yardım etmeye gitti.

Eşim ve karakoldaki arkadaşları – Aliyev Cavan, Memmedov Kamil, Ahmedov Fegan ve Rustemov Füzuli çiftliği istila eden ve halkın ormana geçmesine neden olan Ermenilerle savaştılar. Eşimi beklemek için uzun süre nehir kenarında oturdum ama gelmedi. Ermenilerin onları öldürdüğünü düşündüm. Çocuklarımı alıp nehri geçtim. Buzlu yamaçlarda yürümek çok zordu; kayıp düşüyorduk ve tekrar ayağa kalkıyorduk. En küçük oğlum sırtımdaydı; büyük oğlum Elmeddin yardımsız yürüyebiliyordu. Zifiri karanlık olduğu için göz gözü göremiyordu. Biri oğlumun kolundan tutup ona yardım etti. Geriye dönüp baktığımda evlerimizin alevlendiğini gördüm.

Bir şekilde dallara tutunarak dağa tırmandık. Arkamdan bir ses duydum. Birisi önden yürüyen kız kardeşim olduğunu söyledi. Kardeşim Rövşen'i gördüm, hemen atkısını çıkarıp küçük oğlumun boynuna doladı. «Halka yardım ediyoruz; bir yol bulup onları Ağdam›a götürelim.» dedi. Konuşmamız beş dakikadan fazla sürmedi. Gökyüzü açıktı; tırmandığımız dağdan daha yüksek, önümüzde dağlar ve vadiler vardı. Sanki Tanrı›nın gazabı inmiş gibi korkunç bir geceydi.

Meşdi öğretmenin oğulları Şahin ve Cavanşir, yaşlı annelerini tahtadan yapılmış bir sedyede taşıyorlardı. Lale Teyze ve ben iki çocuğumuzla arkadaydık. Rövşen, halkı Ağdam'a götürecek bir yol bulmaya çalışarak önden gitti. Kardeşim, kadınlar ve çocuklar donmasın diye ateş yaktı. Isınır ısınmaz ateşi söndürüp yolumuza devam ediyorduk. Birden baktık ki, çok sayıda kadın ve çocuk koşarak bize doğru geliyor. Garagaya tarafında Ermenilerin halkı makineli tüfeğin önüne verip katlettiklerini söylediler. Rövşen, savaş arkadaşları ve rehberle birlikte öne düşüp halkı kurtarmak için bir çıkış yolu aramaya gitti. O günden sonra onu bir daha göremedim. Yüzlerce insan

dağın yamacından dar bir patikadan ilerliyordu. Gücüm kalmamıştı. Çocuklarım donuyordu, herkes çıkıp gitmişti. İki çocuğumla baş başa kalmıştım. Bir ağacın dibine çekilip ateş yakmak istedim ama yakamadım. Anladım ki biraz daha kalırsak çocuklar donacak. Paltomu çıkardım, beş yaşındaki oğlumu üzerine yatırıp kemerle bağladım ve sürüklemeye başladım. Sürüne sürüne patikaya ulaştık. Zifiri karanlık gecede yürümeye başladık. Karşıdan bir hırıltılı ses duydum; bizim insanlardı. Ateş yakmış, ısınıyorlardı. Kardeşim Rövşen ile amcaoğlum Elşen bizi karşılayıp ateşin yanına getirdiler.

Kısa bir süre ısındıktan sonra Ermeniler bizi fark etmesin diye ateşi söndürdük. 27 Şubat`ta şafak sökerken yolumuza devam ettik. Yolda, «Aman Rövşen, Ağdam'a vardın sanıyordum," dedim. "Bu kadar insanı ormanın ortasında bırakıp nasıl giderim? Biz onlar için buradayız. İnşallah Gülablı'ya sağ salim varırız," diye cevap verdi ve devam etti.

Ormandan çıkar çıkmaz uzakta bir köy belirdi. Köyden bir ses, "Buraya gelin, Ağdam köyü burası," diye bağırdı. Hepimiz sevinçle köye koştuk. Savaşçılarımızın savaşmasına bile izin vermediler; her taraftan ateş açtılar. Ermeniler bizi tuzağa düşürmüşlerdi. Yaşlılar, kadınlar ve çocuklar arasında ölüler ve yaralılar vardı. Köyün kenarı dik bir yamaçtı. Halk dağın yamacına çekildi ve silahlı oğullarımız son mermilerine kadar savaştı. Sonunda, her yerde bitkin düşmüş insanlar birkaç yerde beyaz bayraklar çekip teslim olmaya zorlandılar. Yaklaşık üç yüz kişiyi, iki bölümden oluşan yüksek bir bina olan çiftlik denen bir yerde topladılar. Önce herkesin kıyafetlerini aradılar, paralarını ve altınlarını aldılar. Sonra insanları ikişer- üçer çıkarıp geri getirdiler. Karanlık çökünce, birkaç Ermeni militan içeri girdi ve gençleri kardeşim Hesenov Rövşen Gaçay oğlu, kuzenlerim Bagirov Elşen Hesen oğlu, Usubov Zakir Kamran

oğlu, Usubov Elyar Kamran oğlu, Usubov Elşad Kamran oğlu, Usubov Seyavuş Ramiz oğlu, Aliyev Ülfet İman oğlu, İbrahimov Vügar Hilal oğlu, Memişov Şahin Talış oğlu, Zeynalov Tofig Aslan oğlu, Paşayev Alaaddin Behlül oğlu, Garayev Usubali Süleyman oğlu, Cabbarov Azad Pirgulu oğlu alıp götürdüler. Önce bir makineli tüfek sesi ardından bir KAMAZ kamyonunun gürültüsü duyuldu. Sabah olduğunda inlemeler arşa yükseldi; feryatlar sağır ediciydi. O gençlerin çaresiz babaları, gözyaşları içindeki anneleri, kardeşleri, kalpleri kanla dolu bebeklerin sesleri duyulmuyordu.

"Ertesi gün, bazılarımız esaretten kurtuldu; bazılarımız esir kaldı. Gözü yaşlı çocuklarımla birlikte serbest bırakılmış olsam da hiç mutlu değildim; ruhum kaybettiklerimle birlikte orada kaldı."

Ama Elşen, önlüğünü kucağına sıkıştırarak evden çıkan annesi Zehra Teyze ve çocuklarıyla birlikte kalan kız kardeşi Naile'nin da Ermeniler tarafından öldürüldüğünü bilmiyordu. Elşen, kaderi bugüne kadar bilinmeyen kahraman evlatlardan biridir. O soğuk, kanlı gecenin karanlığında sonsuzadek kayboldu. Düşmanın onlara neler yaptığını, nasıl öldürüldüklerini düşünmek yürek parçalayıcı. Gerçekten de intikam ahiretin işi değildir, ancak bu talihsiz gençleri düşündüğümüzde damarlarımızdaki kan donar ve kaybımızın intikamını henüz almadığımızı hissederiz. Aldığımız her intikam, o kader gecesinde çaresiz anne babalara verilen zararla kıyaslandığında önemsizdir.

# “BACIMA NƏ CAVAB VERƏCƏYƏM?!”



**Ələddin Bəhlul oğlu Paşayev 1961-ci ildə Xocalıda anadan olmuşdu. 1992-ci il fevralın 26-da girov götürülüb. “13-lər”dən biridir. Taleyi məlum deyil…**

O vaxtlar kəndimizin əksəriyyəti çoxuşaqlı ailələrdən ibarət idi. Onlardan biri də Ələddingilin ailəsi idi. Çox zəhmətkeş, idi, alın təri ilə çörək qazanır, düzgün, tərbiyəli ailə idilər. Bağlı-bağatlı həyətyanı sahələri vardı, hələ də xatırlayıram, bağlarındakı sapsarı üzüm salxımları göz oxşayırdı. Oğlan uşaqları həyətyanı sahələrdə valideynlərinə kömək edir, bağ-bostanlarında hər cür meyvə-tərəvəz yetişdirirdilər. Ələddin çox zəhmətkeş uşaq idi, qollarını çırmayıb evin-ailənin ən ağır yükünün bir tərəfini tək çiynində daşıyırdı. Payızda bağlarından məhsulu yığıb-yığışdırmaqla bitməzdi. Eşitdiyimə görə, qışı çox sevirmiş, çünki qışda torpaq da, Ələddin də dincəlirdi.

Ağlına da gəlməzdi ki, sevdiyi qış günlərindən biri onun ömrünə qənim kəsiləcək.

Otuz bir il bundan öncə gələn qış hamının yuxusunu ərşə çəkmişdi, eləcə də Ələddinin. Gənc ömrünü məhv edən o soyuq gecədən xəbərsiz idi. Yenicə ailə həyatı qurduğu şəkili qız ilə xoşbəxtliyinin ilk günlərini yaşayırdı, sən demə, son günlərини yaşayırlarmış…

Xocalı özünümüdafiə batalyonunun əsgəri kimi ilk gündən postda durur, yurdunu qoruyurdu. Şəhərin mühasirəsi isə hər gün bir az da daralırdı. Nə səslərini eşidən vardı, nə duyan, nə

görən. Həmin gecə Xocalının mühasirə halqasının daraldığını gördükcə Ələddinin nəfəsi də daralırdı. Gecənin bir yarısı insanlar yola tökülmüşdülər, o da Qarqar çayını keçən həmyerlilərinə kömək edirdi. Qarlı aşırımları keçərkən, qadın, uşaq, yaşlı demədən camaatın gülləbaran edilməsinə dözə bilmirdi. Sıldırım qayaları aşmaq üçün özündə güc toplayıb, silahlı gənclərlə birlikdə camaatı Ağdama keçirə bilmək üçün Əzrayılla savaşırdı.

**Ələddinin bacısı Xalidə Həsənova xatırlayır:**

– Ayağım ağır yaralanmışdı, hadisədən əvvəl məni vertolyotla Yevlax xəstəxanasına gətirmişdilər. Ürəyim isə kəndimizdə, ailəmin yanında qalmışdı. Oğlum Mehdi Həsənov oxuduğu Memarlıq və İnşaat Universitetini yarımçıq qoyub, Xocalı özünümüdafiə batalyonunda postda dayanırdı. Qardaşlarım, qohum-əqrəbam, bütün xocalılılar silaha sarılmışdılar. Əslində, elə bir silahları da yox idi. Dörd il idi, Xocalını yalın əllə, ov, quş tüfəngləri ilə qorumuşdular, ta o gecəyədək. Həmin gecə böyük qardaşım – rəhmətlik Sevindik, həyat yoldaşı Reyhan, oğlu Elşad, qardaşım Ələddin və oğlum Mehdi olmaqla, 300-ə yaxın kənd sakini ilə birlikdə çıxırlar. Sevindiyin həyat yoldaşı Reyhan deyirdi ki, yolu azdıq, üç gün meşədə yolu tapa bilmədik, taqətdən düşmüşdük. Aclıq və susuzluq taqətimizi kəsmişdi. Qarı ovuclayıb yeyirdik ki, susuzluğumuz yatsın. Axırda Abdal-Gülablıya deyil, ermənilərin yaşadıqları Dəhraz kəndinə gedib çıxmışdıq. Sən demə, ermənilər pusquda dayanıb bizi yüksəklikdən izləyirmişlər. Biz dərədə idik. Aramızdakı silahlıların da patronu qurtarmaq üzrə idi. Erməni yaraqlıları bizi dövrəyə alıb girov götürmək istəyəndə, Mehdi bir gözqırpımında qaça-qaça onlara tərəf atəş açdı. Bir neçə ermənini öldürdü. Bundan qəzəblənən ermənilər, “Əgər təslim olmasanız, hamınızı güllələyəcəyik” – deyə ultimatum

verdilər. Bizimkilər də çarəsiz vəziyyətdə ağ bayraq qaldırıb təslim oldular. Ələddin o faciəli gecədə bacısı Xalidəni düşünürdü, hey deyirdi ki, bacıma nə cavab verəcəyəm, oğlunu mənə əmanət edib. Böyük bir dəstəni girov götürüb, Dəhrazdakı məlum binaya topladılar. Hamının üstündəki qızılını, pulunu aldılar. Sonra da girovlar arasından 13 gənci seçib apardılar. Onlardan biri də Ələddin idi. Girovlardan 40-45 yaş arasında olan kişiləri isə KamAZ-a doldurub Xankəndiyə aparmışdılar.

**Xalidə doluxsunur, bir qədər sonra sözünə davam edir:**

– Böyük qardaşım fevralın 29-da girov düşüb. Onu aprelin 20-də azad etsələr də, o qədər işgəncə vermişdilər ki, çox yaşamadı, dünyasını vaxtsız dəyişdi. Bacısı ölsün Ələddinin, onun bir məzarı belə yoxdur, hələ də taleyindən xəbərsizik. Ermənilər aparana qədər məni, oğlumu düşünüb.

Şəkidən böyük arzularla sevib evləndiyi ömür-gün yoldaşı Səmayə xanım hazırda Goranboyda yaşadığı təkotaqlı mənzildə hələ də Ələddinin yolunu gözləyir.

*Ey yolçu, oralara yolun düşsə, çağır Ələddini, bəlkə səsin-ünün ona yetə. De ki, qoyub getdiyin gənc yoldaşının gözləri yollarda qalıb, yaşlanıb, dərddən saçları ağarıb. Gəl, qardaş, yoldaşının gözlərini yığ yollardan. Ya da sehrli çırağı köməyə çağır, bəlkə o yardım edə...*

# KIZ KARDEŞİME NE CEVAP VERECEĞİM?

**Paşayev Aladdin Behlül oğlu, 1961 yılında Hocalı'da doğdu. 1992'deki Hocalı soykırımı sırasında rehin alındı. 13 kişiden biri. Akıbeti bilinmemekte.**

O zamanlar köyümüzdeki ailelerin çoğu kalabalıktı. Bunlardan biri de Aladdin'in ailesiydi.

Ekmeklerini alın teriyle kazanan, çocuklarını terbiyeli ve görgülü yetiştiren çalışkan insanlardı. Bahçeleri ve meyve bahçeleri vardı; bahçelerindeki güzel sarı üzüm salkımlarını hâlâ hatırlıyorum.

Çocuklar anne babalarına yardım ediyor, türlü meyve ve sebze yetiştiriyorlardı. Aladdin çalışkandı. Kollarını hiçbir zaman kavuşturup durmadı; evin en ağır yüklerini kendi omuzlarında taşıdı. Sonbaharda mahsul toplamakla da yetinmezdi. Duyduğuma göre kışı severmiş çünkü kışın hem toprak hem de Aladdin dinlenebiliyormuş. Ama o çok sevdiği kış günlerinden birinin kısa süreceğini bilmiyordu. 33 yıl önce, o kış, Aladdin de dahil olmak üzere herkesi derin bir uykuya daldırmıştı.

Genç hayatını mahvedecek soğuk geceden habersizdi. Yeni evli kızıyla mutlu günlerinin ilk günlerini yaşamaya yeni başlamıştı. Hocalı Öz Savunma Taburu'nda bir asker olarak ilk günden beri mevzisinde durmuş, vatanını savunmuştu. Şehrin kuşatması her geçen gün daha da daralıyordu. Kimse sesini duymuyor, kimse onu görmüyordu. Kuşatma çemberi geceleyin daraldıkça Aladdin'in nefesi daralıyordu. Gece yarısı insanlar yola döküldü ve o, yoldaşlarının Gargar Nehri'ni geçmesine yardım etti. Karlı yamaçları geçerken kadınları, çocukları ve yaşlıları esirgemeyen amansız ateşe dayanamadı. Dik kayalara

tırmanmak için güç topladı ve halkı güvenle Ağdam'a götürmek için gençlerle birlikte Azrail`le savaştı.

**Aladdin'in kız kardeşi Halide Hesenova şöyle anlatıyor:**

"Bacağım ciddi şekilde yaralandığı için olaydan önce helikopterle Yevlah hastanesine tahliye edildim. Ama kalbim köydeki ailemle birlikte kalmıştı. Oğlum Mehdi Hesenov, eğitim aldığı Mimarlık ve İnşaat Üniversitesi'nden ayrıldı ve Hocalı Öz Savunma Taburu'na katıldı.

Kardeşlerim, akrabalarım ve Hocalı halkının tamamı silahlanmıştı. Aslında yeterli silahları bile yoktu. Dört yıl boyunca Hocalı çıplak eller, av tüfeği ve taşla savunuldu, ancak o geceye kadar köyü koruyabildiler.

O gece, ağabeyim rahmetli Sevindik, eşi Reyhan, oğlu Elşad, kardeşim Aladdin ve oğlum Mehdi yaklaşık 300 köylüyle birlikte yola çıktılar. Sevindik'in eşi Reyhan, yolu kaybettiklerini, üç gündür ormanda dolaştıklarını ve yorgun düştüklerini söyledi. Açlık ve susuzluk gücümüzü kırmıştı. Susuzluğumuzu gidermek için kar yedik. Sonunda Abdal-Gulabli'ye ulaşamadık, ancak Ermenilerin yüksek tepelerde pusuda beklediği Dehraz köyüne vardık. Aramızdaki silahlı adamların cephaneleri bitmek üzereydi.

Ermeni militanlar etrafımızı sarıp bizi rehin almaya çalıştığında, Mehdi anında ateş açarak birkaç Ermeni'yi öldürdü. Öfkelenen Ermeniler bir ültimatom verdi: "Teslim olun, yoksa hepinizi vururuz." Çaresizlik içindeki halkımız beyaz bayrak çekerek teslim oldu.

O trajik gecede, Alaaddin kız kardeşi Halide`yi düşündü ve "Oğlunu bana emanet ettiği için kız kardeşime ne cevap vereceğim?" diye sorurdu, kendi kendine. Çok sayıda rehine alıp Dehraz'daki o malum binaya topladılar, tüm altın ve paralarına el koydular. Sonra aralarından 13 genç seçtiler; içlerinden biri

Aladdin'di. Kırk ila kırk beş yaşlarındaki erkekler KAMAZ kamyonlarına bindirilerek Hankendi'ye götürmüşler.

**Halide hıçkırıklara boğulur, bir süre sonra devam ederek anlatıyor:**

"Ağabeyim 29 Şubat'ta rehin alındı ve 20 Nisan'da serbest bırakılsa da maruz kaldığı işkenceler yüzünden erken yaşta öldü. Ablası kurban, ağabeyim Alaaddin›in mezarı bile yok ve akıbetinden hâlâ haberimiz yok.

Ermeniler onu alıp götürene kadar beni ve oğlumu düşündü. Şeki'den , büyük bir özveriyle sevdiği ve evlendiği eşi Semaye Hanım, Goranboy'da yaşadığı küçük dairede hâlâ Aladdin'i bekliyor.

*Ey yolcu, oralara gidersen Aladdin'i çağır. Belki sesin ve şöhretin ona ulaşır. Geride bıraktığı genç eşinin gözlerinin yollarda karardığını, yaşlandığını ve kederden saçlarının bembeyaz olduğunu söyle. Gel kardeşim, gel de eşinin gözlerini yollardan geri al. Ya da sihirli bir lamba bul; belki Aladdin'e yardım eder."*

## "ATAM ELƏ HEY, "HANI ŞAHİN, HANI ŞAHİN?"– DEYİRDİ…



**Şahin Talış oğlu Məmişov 1959-cu ildə Laçın rayonunun Bülövlük kəndində anadan olmuşdu. 1992-ci il fevralın 26-da girov götürülüb. "13-lər"-dən biridir. Taleyi məlum deyil…**

Şahinlərin qıy vurub səmanın ənginliklərində rəqs edən dünyalar gözəli Laçında doğulmuşdu Şahin. Ailəsi Əsgərana köçəndə cəmi dördyaşlı yeriyib-yüyürən uşaq idi. Əvvəlcə Əsgəranın Qırmızıkənd kəndində məskunlaşmışdılar. Orada məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanır. Ukraynanın İvano-Frankovsk şəhərində xidmətini bitirib vətənə döndükdən sonra, Gəncədə Maliyyə Kredit Texnikumunda təhsil alır. Bir ara Bakıda çalışır. Ailələri Xocalıya köçəndə orada Sığorta İdarəsində işləyir. Qarabağda müharibə başlayanda gündüzlər çalışır, işdən sonra Xocalı özünümüdafiə batalyonuna yazılıb, yurdunun müdafiəsində dayanır.

**O gecənin şahidi Nazilə Məmişova xatırlayır:**

– Evimiz kəndin lap yuxarısında idi. Kənd hər gün top və qrad yağışına tutulduğundan, gecələr çox vahiməli olurdu. Sabahların birində qonşumuz Məzahirgilin evinə atəş düşdü, evlərinin bir hissəsi yandı. Həmin gündən evdə qalmağa qorxurdum. Atamın bacısı Yaxşı mamamgil kəndin aşağısında öz evlərində yaşayırdılar. Biz də bir müddət onlarda qalırdıq. Evimizin yararlı əşyalarını da onlara gətirmişdik.

Xocalıdakı çörək sexindən camaata hazır kündələr verirdilər ki, evdə bişirək. Biz də çörək bişirib postlara paylayırdıq.

Həmin gecə həyat yoldaşım Zakirlə qardaşım Şahin postda dayanmışdılar. Anam borş bişirmişdi. Zakirlə Şahin günorta nahara gəlmişdilər. Şahin könülsüz və dilxor idi. Onlar yemək yedikləri vaxt atışma düşdü, yeməklərini yarımçıq qoyub posta qayıtdılar.

…Axşam düşmüşdü, gördüm ki, Yaxşı mamamgilin həyətinə adamlar toplaşır. Zakir postdan ora gəldi, Şahinin gəlib-gəlmədiyini soruşdu. Şahin isə gəlməmişdi. Mamamgil evdən çıxmağa hazırlaşırdı. Qalın paltarlar geyinirdilər. Mənə də "hazırlaş!"– dedilər. Atamla qardaşım Şahin gəlməmişdi deyə, donub evin ortasında qalmışdım, nə edəcəyimi bilmirdim. Bu vaxt Məzahirin oğlu Rafiq həyətə gəlib, "Elman müəllimgilin dəstəsi şəhəri tərk edir" – dedi. Zakir anamı, məni və Qonçəni götürüb çıxdı. Qarqar çayının kənarına gələndə gördük ki, burada çoxlu adam toplaşıb. Çay gur axırdı. Zakir üçümüzü də bir-bir kürəyinə alıb çayın o biri tərəfinə keçirdi. Atamı kürəyində keçirmək istəsə də, o, razı olmadı. Ayağını soyunmadan özünü çaya vurdu…

**Zakir Səlimov xatırlayır:**

– Noraguh tərəfdən ermənilər kəndə doluşdular. Evimiz kəndin baş hissəsində olduğundan, birinci bizim evə girib, qapını təpiklə açıb, atəşə tutduqlarını gördüm. Mən arxa tərəfdən kəndin aşağısına düşüb, Şahinin gəlmədiyini öyrəndim. Çarəsiz idim, nə gedə, nə qala bilirdim. Vaxtı itirmək olmazdı. Getsək də ürəyim Şahinin yanında qalmışdı. Bir müsibətlə gəlib Ağdama çatdıq. Cəhənnəmi keçib gəldik. Qaynatam Talış dayı bizimlə gəlmədi.

Fevralın 27-də günortaüstü hərbçilər onu Qaraqayadan donmuş halda xəstəxanaya gətirdilər. Həkimlər xilas edə bil-

mədilər. Son sözü "Şahin hanı, Şahin hanı?!"– oldu.

Yaxın qohumumuz Qənəhət dayı deyir ki, bizi girov götürüb Dəhraz kəndindəki tikiliyə aparanda Şahin aramızda deyildi. Onu sonradan gətirdilər. Ermənilər camaatı girov götürəndə Şahin camaatı qurtarmaq istəyib. Ona dedim ki, bala, özünü niyə oda atdın, axı səni görməmişdilər? Dedi ki, ermənilər sizi aparanda qurtarmaq istəyirdim. Gecə gəlib aramızdan 13 nəfər sağlam, yaraşıqlı gənci aparanda Şahin də onların içərisində idi…

Qənəhət dayı xeyli müddət girovluqda qalıb, cəhənnəmi diri-diri yaşamışdı.

*Ey yolçu, Xocalıya yolun düşsə, Dəhraz kəndinə də bir dön, bax gör, Şahin haradadı? Atası "Şahin" deyə-deyə dünyadan köçüb...*

## BABAM HEP, 'NEREDE ŞAHİN, NEREDE ŞAHİN?' DERDİ

**Memişov Şahin Talış oğlu, 1959 yılında Laçin bölgesindeki Bulovluk köyünde doğdu. 1992'deki Hocalı soykırımı sırasında rehin alınan on üç kişiden biridir. Akıbeti bilinmemekte.**

Zeki ve enerjik bir genç olan Şahin, Laçin'de doğdu ve ailesi Askeran'a taşındığında henüz dört yaşındaydı. İlk olarak Kırmızıkend köyüne yerleştiler ve askere gitmeden önce burada eğitimini tamamladı. Daha sonra Gence'deki Finansal Kredi Teknik Okulu'nda eğitim aldı ve daha sonra bir süre Bakü'de çalıştı. Ailesi Hocalı'ya taşındığında Sigorta Dairesi'de işe başladı.

Karabağ'da savaş başladığında, Şahin gündüzleri çalışıyor, işten sonra da Hocalı Öz Savunma Taburu'na katılarak diğer cesur gençlerle birlikte vatanını savunuyordu.

**O gecenin tanığı Nazile Memişova şöyle anlatıyor:**

"Evimiz köyün en tepesindeydi. Her gün köy topçu ateşi ve bombardımana maruz kalıyordu; geceleri korkunçtu. Bir sabah komşumuz Mezahir`lerin evi ateşe verildi ve bir kısmı yandı. O günden itibaren evde kalmaktan korkmaya başladım. Babamın kız kardeşi Yahşı Mamamgil (halamlar) köyün aşağı tarafında, kendi evlerinde yaşıyorlardı. Biz de bir süre onların yanında kalıyorduk. Evimizin işe yarar eşyalarını da onların yanına getirmiştik. Hocalı'daki ekmek fırınından halka, evde pişirmemiz için hazır hamur bezeleri veriliyordu. Biz de ekmek pişirip mevzilere dağıtıyorduk.

O gece, eşim Zakir ve kardeşim Şahin nöbetçiydi. Annem borş pişirmişti. Şahin öğle yemeği için kısa bir süre eve döndü,

morali bozuk ve üzgündü. Onların yemek yedikleri sırada ateş başladı, yemeklerini yarıda bırakıp hemen mevziye geridöndüler.

Akşam vaktiydi ve Yahşi Mamamgilin (halamların) evinde insanların toplandığını gördüm. Zakir mevziden geldi ve Şahin'in gelip gelmediğini sordu. Ama Şahin gelmemişti. Halamlar evden ayrılmaya hazırlanıyordu. Kalın elbiseler giyiyorlardı. Bana da "hazırlan!" dediler. Babam ve Şahin gelmediği için, ne yapacağımı bilemeden evin ortasında kala kalmıştım. O sırada Mezahir'in oğlu Rafig avluya geldi ve "Elman öğretmenlerin grubu şehirden ayrılıyor" dedi. Zakir annemi, beni ve Gonça'yı alıp gitti. Gargar Nehri'nin kıyısına vardığımızda, orada birçok insanın toplandığını gördük. Nehir çok hızlı akıyordu. Zakir üçümüzü sırtına alıp nehrin karşı kıyısına taşıdı. Babamı da sırtına almak istese de, babam kabul etmedi. Ayakkabılarını çıkarmadan kendini nehre attı…

**Zakir Salimov ekliyor:**

"Ermeniler Noraguh'tan geldi. Evimiz köyün ana caddesinde olduğu için önce onların evimize girdiğini, kapıyı tekmeleyerek açtığını ve ateş ettiğini gördüm. Köyün arka tarafına kaçtım, ancak Şahin'in gelmediğini öğrendim. Çaresizdim, ne gide, ne de kalabiliyordum. Vakit kaybetmemek gerekiyordu. Gitek de kalbim onunla kaldı. Binbir kıyametle Ağdam`a ulaştık. Cehennem`den geçip de gelmiştik. Kayınpederim Talış dayı bizimle gelmedi. Fakat sonra o, Garagaya'dan hastaneye donmuş halde getirildi ve 27 Şubat öğlen vakti hayatını kaybetti. Son sözleri 'Şahin nerede, Şahin nerede?' oldu."

Yakın akrabalarından Ganahat dayı, rehineler Dehraz'daki bir binaya götürüldüğünde Şahin'in başta aralarında olmadığını, ancak daha sonra getirildiğini anlatıyor. Kaçırılma sırasında başkalarını kurtarmaya çalışmış.

"Ona, 'Oğlum, neden kendini ateşe attın?' diye sordum. 'Ermeniler seni götürdüğünde seni kurtarmak istedim' diye cevap verdi.

O gece gelip aralarından on üç genç alındığında, Şahin de aralarındaydı. Genehet dayı uzun süre rehin tutulmuş, cehennemi iliklerine kadar yaşamıştı.

*Ey yolcu, yolun Hocalı'ya düşerse Dehraz köyüne de bir uğra, bak gör, Şahin nerede? Babası "Şahin" diye diye bu dünyadan göçüp gitti...*

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizaynerlər:** ***Azər Aydın***

Çapa imzalanmışdır: 26.01.2026.
Teslim tarihi 06.09.2025.
Baskı için imza tarihi 26.01.2026.
Formatı 60x90 1/16.
Həcmi 5 ç.v. Sifariş № 08. Tiraj 100

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru